AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

12 İYUL 2019-cu il CÜMƏ № 149 (6476) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## “İslam sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun iştirakçılarına

Hörmətli Simpozium iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində salamlamaqdan məmnun olduğumu bildirir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Etnik-mədəni müxtəlifliyi və təbii-coğrafi zənginlikləri ilə dünyanın unikal guşələrindən olan Qafqazın son 1400 illik tarixi İslam dini ilə bağlıdır. Azərbaycanda, o cümlədən Qafqazın müxtəlif bölgələrində bu dinə məxsus çoxsaylı maddi və qeyri-maddi mədəniyyət nümunələri İslam sivilizasiyasının regiondakı dərin köklərindən xəbər verir. Bu gün Qafqazda yaşayan xalqların bir çoxunun mədəniyyətinin əsasını İslam dəyərləri təşkil edir.

İslam VII əsrin ortalarından etibarən Azərbaycanda yayılmağa başlamış və ölkəmiz İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən birinə çevrilmişdir. Xalqımız yüz illər boyu belə bir mədəni-mənəvi müstəvidə bəşəri fikir tarixinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya şöhrətli azərbaycanlı alim və mütəfəkkirlər, söz və sənət dühaları İslam mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmişlər.

Tarixən olduğu kimi, bu gün də Azərbaycanda islami dəyərlərin qorunmasına xüsusi əhəmiyyət verilir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 9-11 dekabr 1998-ci ildə “İslam sivilizasiyası Qafqazda” Beynəlxalq Simpoziumunun Bakıda keçirilməsi xalqımızın öz tarixi keçmişinə və milli-mənəvi dəyərlərinə bağlılığın bariz nümunəsi idi.

2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan edilməsi və IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi müasir narahat dünyamıza əmin-amanlıq və həmrəylik çağırışları kimi qiymətləndirilməlidir. Bir sıra ölkələrdə islamofobiyanın vüsət aldığı hazırkı dövrdə biz insanları birliyə, bərabərliyə, sülhə və tolerantlığa dəvət edən ümumbəşəri İslam dəyərlərinin təbliği istiqamətində ardıcıl səylərimizi, eyni zamanda, mədəniyyətlərarası dialoq və əməkdaşlıq təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

“İslam sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun maraqlı və konstruktiv müzakirələr şəraitində keçəcəyinə, Azərbaycanın, ümumilikdə Qafqazın İslam sivilizasiyasının inkişafındakı tarixi yerinin və rolunun araşdırılmasına yeni töhfələr verəcəyinə əminliyimi bildirir, toplantınızın işinə uğurlar arzulayıram.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 iyul 2019-cu il.**

## Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, mədəniyyəti, tarixi, sosial-iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbliğat işini genişləndirmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzi yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Mədəniyyət Mərkəzinin fəaliyyətinin təmin edilməsi ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 iyul 2019-cu il.**

# Əbədi lider



**Bu gün onu tarix səhnəsində misilsiz rol oynamış siyasət nəhəngləri ilə müqayisə edirlər: M.K.Atatürk, U.Çörçill, F.Ruzvelt, Den Syaopin, Ş.de Qoll... Həmin şəxsiyyətlərin mənsub olduqları xalqların qarşısındakı xidmətlərini bircə meyarla ölçmək mümkündür - Türkiyənin, Böyük Britaniyanın, ABŞ-ın, Çinin, Fransanın... müasir vəziyyəti və inkişaf səviyyəsi ilə. Eyni fəlsəfədən yanaşsaq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, müasir Azərbaycan da ulu öndər Heydər Əliyevin şah əsəridir.**

* * *

1969-cu il iyulun 14-də Respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində işləyən general Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Həmin tarixi plenumda tək ölkə kommunistlərinin lideri deyil, bütöv bir xalqın, respublikanın rəhbəri və gələcək taleyi həll edildi. Mübaliğəsiz demək olar ki, Azərbaycan özünün sonrakı və elə həm də müasir inkişafına görə həmin taleyüklü tarixçəyə borcludur. Məhz, ümummilli lider Heydər Əliyevin rəhbərliyi illərində respublikada yeni sənaye sahələri - elektron maşın, elektronika, yeni maşınqayırma, kimya sənayesi, eləcə də digər sənaye infrastrukturu obyektləri yaradıldı, iqtisadi göstəricilər sürətlə artdı və artıq 70-ci illərin axırında həmin göstəricilər üzrə respublika ittifaq miqyasında qabaqcıllar sırasında yer aldı. 1975-1980-ci illəri əhatə edən beşillik tapşırıqlar vaxtından əvvəl yerinə yetirildiyinə görə Azərbaycan keçici qırmızı bayraqlar aldı və ordenlərlə təltif edildi, həmin uğurların, möhtəşəm dirçəliş və quruculuğun memarı və təşkilatçısı olan ümummilli lider Heydər Əliyev isə iki dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldü.

Ulu öndər sovet dövrünün tanınmış, sayılıb-seçilən siyasi rəhbərlərindən biri idi. Buna görə də o Moskvaya - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilərkən Kremlin “daimi sakinləri” onunla əyalət kadrı kimi deyil, siyasi elita kimi, siyasət kürəsində bişib püxtələşmiş, hətta deyərdik ki, dünya siyasət meydanında böyük imic qazanmış bir siyasi lider kimi hörmət və ehtiramla davranmağa başladı və ulu öndər Heydər Əliyev artıq SSRİ kimi nəhəng bir dövləti idarə edən böyük siyasi xadimə çevrilmişdi.

Sonralar dahi şəxsiyyət Heydər Əliyevin SSRİ-nin siyasi rəhbərliyindən uzaqlaşdırılması hər nə qədər ağrılı olsa da, onun siyasi hakimiyyətə yenidən qayıdışı onu sevənlər və gözləyənlər üçün daha möhtəşəm oldu.

Azərbaycanda milli dövlətçiliyin təşəkkülünün əsas ideya və yolları barədə uzaqgörən fikirlərini ulu öndər Heydər Əliyev 1992-ci ildə yaratdığı Yeni Azərbaycan Partiyasının siyasi platformasında əks etdirmişdi. Ulu öndər hələ 1990-cı ilin yazında deyirdi: *“İstəyirəm ki, xalqımız mütəşəkkil olsun, Milli qürur hissi daha da güclənsin, tariximizi sevək, Vətən qarşısında xidməti olan insanların qədrini bilək”.* Bu fikirlərini söyləyərkən Heydər Əliyevin ən ülvi və böyük arzusu xalqın birliyinə, bütün azərbaycanlıların həmrəyliyinə söykənən milli dövlətin yaradılması olmuşdur.

Ümummilli lider Heydər Əliyev 1993-cü il iyunun 15-ni Azərbaycan tarixinə Qurtuluş Günü kimi yazmış Xilaskardır. O, Azərbaycanın həqiqi müstəqilliyinin və davamlı inkişafının işlək modelini və nəzəri-təcrübi konsepsiyasını işləyib hazırladı.

**(davamı 5-ci səhifədə)**

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli, “Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli və “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 26 sentyabr tarixli 508 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 9, maddə 1689; 2018, N 5, maddə 1066) ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı”nın 5.3.2-ci yarımbəndinin “Tədbirin adı” sütununda “keçirilməsi” sözü “və əmək birjalarının təşkili” sözləri ilə əvəz edilsin.

2. “Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 10, maddə 1832; 2018, N 5, maddə 920, N 6, maddə 1196) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və 1-ci hissədə “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2. həmin Sərəncamla təsdiq edilmiş “Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı” üzrə:

2.2.1. adında “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.2. 1.1-ci bəndin “Tədbirlərin adı” sütununda “Qeyri-rəsmi” sözləri “Qeyri-formal” sözləri ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.3. 1.3-cü bəndin “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.4. 1.6-cı bəndin “Tədbirlərin adı” sütununda “Qeyri-rəsmi” sözləri “Qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.5. 1.8-ci bəndin “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.6. 1.9-cu, 1.11-ci və 1.12-ci bəndlərin “Tədbirlərin adı” sütununda “Qeyri-rəsmi” sözləri “Qeyri-formal” sözləri ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.7. 2.1-ci bəndin “Tədbirlərin adı” sütununda “Qeyri-rəsmi əmək münasibətlərinin” sözləri “Qeyri-formal məşğulluğun” sözləri ilə əvəz edilsin;

2.2.8. 2.2-ci bəndin “Tədbirlərin adı” sütununda “Qeyri-rəsmi əmək münasibətlərinin” sözləri “Qeyri-formal məşğulluğun” sözləri ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.9. 2.4-cü bəndin “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.10. 2.6-cı bəndin “Tədbirlərin adı” sütununda “proqramlarının” sözü “tədbirlərinin” sözü ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “vətəndaşların” sözü “şəxslərin” sözü ilə əvəz edilsin;

2.2.11. 3-cü hissənin adında “Qeyri-rəsmi” sözləri “Qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.12. 3.2-ci bəndin “Tədbirlərin adı” sütununda “Qeyri-rəsmi əmək münasibətlərinin” sözləri “Qeyri-formal məşğulluğun” sözləri ilə və “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.13. 3.4-cü bəndin “Tədbirlərin adı” sütununda “Yerli icra hakimiyyəti orqanları yanında məşğulluğa kömək üzrə” sözləri “Məşğulluğa kömək göstərən yerli” sözləri ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.14. 3.5-ci bəndin “Tədbirlərin adı” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.15. 3.6-cı bəndin “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri- formal” sözləri ilə əvəz edilsin;

2.2.16. 4.2-ci bəndin “Tədbirlərin adı” sütununda “Qeyri-rəsmi” sözləri “Qeyri-formal” sözləri ilə və “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.17. 4.5-ci bəndin “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri- formal” sözləri ilə əvəz edilsin;

2.2.18. 5-ci hissənin adında “Qeyri-rəsmi” sözləri “Qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.19. 5.1-5.3-cü bəndin “Tədbirlərin adı” sütununda “Qeyri-rəsmi” sözləri “Qeyri-formal” sözləri ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.20. 5.4-cü bəndin “Tədbirlərin adı” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin;

2.2.21. 5.5-ci bəndin “Tədbirlərin adı” sütununda “Qeyri-rəsmi” sözləri “Qeyri-formal” sözləri ilə əvəz edilsin, “Gözlənilən nəticə” sütununda “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli 508 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 9, maddə 1893) ilə təsdiq edilmiş “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın 5-ci hissəsinin 5.1.3-cü yarımbəndinin 1.3.1-ci tədbirinin ikinci abzasında “qeyri-rəsmi” sözləri “qeyri-formal” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 iyun 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 fevral tarixli 1816 nömrəli Fərmanında dəyişiklik edilməsi və “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” 2003-cü il 23 dekabr tarixli 7 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Sahibkarlıq fəaliyyəti haqqında” və “Çayçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1388-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

**1.** “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1816 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 2, maddə 180) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 2.1-ci bəndə “hissəsində” sözündən sonra “və 9-cu maddəsinin 3-cü hissəsində” sözləri əlavə edilsin;

*1.2.* 2.5-ci bənddə “və 3-cü hissələrində” sözləri “hissəsində” sözü ilə əvəz edilsin;

*1.3.* aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

“2.5-1. həmin Qanunun 9-cu maddəsinin 3-cü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu nəzərdə tutulur;”.

**2.** “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 dekabr tarixli 7 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, N 12 (II kitab), maddə 718; 2014, N 5, maddə 477; 2016, N 8, maddə 1384) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 14 iyun 2019-cu il.**

# Davamlı modernləşməyə və sosial rifaha xidmət edən islahatların müəllifi

**“Newtimes.az” portalı Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun ulu öndər Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə gəlməsinin 50 illiyi ilə bağlı “Davamlı modernləşməyə və sosial rifaha xidmət edən islahatların müəllifi” mövzusunda geniş məqaləsini dərc edib. AZƏRTAC məqaləni təqdim edir.**

* * *

Dünyada elə bir xalq tapmaq çətindir ki, hansısa taleyüklü və mürəkkəb mərhələdə onun taleyində müstəsna rol oynamış, sabit və davamlı dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Belə seçilmiş liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Belə dahi şəxsiyyətlər yüksək mənəvi dünyaları ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə sidq-ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar.

XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan ümummilli lider Heydər Əliyevin siyasi obrazı da Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən üstün keyfiyyətlərinin canlı mənzərəsidir. Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir.

Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bu mənada, ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim problemlərin həllinə doğru irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür. Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikanın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayaraq ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanmışdır. Zaman və ictimai-iqtisadi formasiya baxımından kifayət qədər fərqli olan hər iki tarixi dövrün əsas bənzər cəhətləri isə Ulu Öndərin Azərbaycana müqayisəyəgəlməz dərəcədə böyük nailiyyətlər qazandıran fədakar xidməti, eləcə də ölkənin inkişafında yeni impuls və tərəqqi meyillərinin geniş vüsət alması olmuşdur. Beləliklə, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və tarixi şərait baxımından tamam fərqli olan dövrlər eyni missiyanın sadəcə biri-birini tamamlayan iki mərhələsi kimi qiymətləndirilə bilər.

## Gələcək müstəqilliyə etibarlı zəmin

İdarəçilik fəlsəfəsi fərqli və özünəməxsus cəhətlərlə zəngin olan Ümummilli Liderin sovet Azərbaycanına rəhbərliyi mərhələsi ölkəni sürətli inkişaf yoluna çıxarmaqla yanaşı, milli müstəqilliyə etibarlı zəmin formalaşdıran amillərlə də zəngin olmuşdur. Milli özünəqayıdış və özünüdərkin məhz bu dövrdə başlanğıcını qoyan, azərbaycançılığın keçən əsrdə yazılan ən parlaq səhifələrinin müəllifi olan ulu öndər Heydər Əliyevin Azərbaycana gətirdiyi ideyalar ölkə həyatını büsbütün müasirləşdirmişdir.

Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin nadir idarəçilik keyfiyyətləri, xarizmatik liderlik məziyyətləri, böyük vətənpərvərliyi ötən əsrin 70-ci illərindən etibarən milli ruhun hədsiz yüksəlişinin təmin edilməsində misilsiz rol oynamışdır. Onun keçmiş sovet idarəçilik sisteminin forma və məzmununu, bütün incəliyini dəqiqliklə bilməsi bu prosesdə maneə yaradıcı amilləri uğurla neytrallaşdırmasına, eyni zamanda, öz ideyalarını reallaşdırmaq istiqamətində mərkəzdən lazımi dəstək almasına imkan vermişdir. Bu kontekstdə ümummilli lider Heydər Əliyevin idarəçiliyinin digər önəmli xüsusiyyətləri Azərbaycanın bütün əsas sahələr üzrə inkişafının yeni mərhələsinə qədəm qoyması, sözün əsl mənasında, öz intibah dövrünü yaşaması olmuşdur. İqtisadi asılılığın aradan qaldırılmasının siyasi müstəqilliyin təməlində duran əsas amillərdən biri olduğunu aydın görən Ulu Öndər respublikanın istehsal potensialının mühüm hissəsinin ittifaq şəbəkəsindən ayrılaraq əsaslı şəkildə müstəqilləşdirilməsi, Azərbaycanın iqtisadi muxtariyyətinin təmin edilməsi, sənaye potensialının güclənməsi, təhsil sferasında yeni inkişaf mərhələsinin əsasının qoyulması, xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması kimi möhtəşəm nailiyyətlərə imza atmışdır.

Ulu Öndər həmin dövrdə azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamıza ayrılmış müsabiqədənkənar yerlərin sayının artırılmasını Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən belə tələbələrin sayı əgər 60 nəfər idisə, 1975-ci ildə onların sayı 600 nəfərə, 1978-ci ildə 800-900 nəfərə çatmışdı. Beləliklə, SSRİ-nin müxtəlif ali təhsil müəssisələrinə göndərilənlərin sayı o zaman təxminən Azərbaycan Dövlət Universitetinə bir il ərzində qəbul olunanların sayına bərabər idi. Ümummilli lider Heydər Əliyev çox sonralar - 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə bununla bağlı demişdir: “Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaqdır. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər”.

Həmin illərdə məhz Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. Ulu öndər Heydər Əliyev bu məsələdə daim qətiyyətli mövqe tutmuş, keçmiş ittifaqın rəhbərliyi qarşısında israrlı tələblərlə çıxış etmiş, prinsipiallıq göstərmişdir. Bu nöqteyi-nəzərdən dahi öndərin Bakı Məişət Kondisionerləri Zavodunun inşası ilə bağlı göstərdiyi əzmkarlığı xüsusi qeyd etmək lazımdır.

Neft sənayesinin iqtisadi inkişafdakı rolunu müdrikliklə nəzərə alan ulu öndər Heydər Əliyev 70-ci illərdə bu sahənin dinamik inkişafına nail olmuş, neft-kimya sənayesinin tamamilə modernləşdirilməsini təmin etmişdir. Həmin dövrdə neft sənayesinin inkişafında tamamilə yeni mərhələ başlanmış, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulmuşdur. Heydər Əliyevin müəllifliyi ilə tərtib olunan “Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması” planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdırılmışdır.

## Milli inkişaf modelinin müəllifi

Ulu öndər Heydər Əliyevin lider kimi böyüklüyü onun daim uzaq hədəflərə hesablanmış və milli məqsədləri önə çəkən siyasət yürütməsi olmuşdur. Məhz ötən əsrin 70-80-ci illərində formalaşdırılmış iqtisadi potensial 90-cı illərin sonlarına doğru dünyada cərəyan edən mürəkkəb proseslərin nəticəsi kimi istiqlaliyyət qazanmış Azərbaycanın sonrakı mərhələdə müstəqil yaşamasını təmin etmişdir.

Müdrik xalqımızın XX əsrdə dünya siyasi arenasına bəxş etdiyi nadir şəxsiyyət kimi Ümummilli Liderlik zirvəsinə ucalmış Heydər Əliyev bu gün həm də müstəqil respublikamızın milli inkişaf modelinin banisi kimi ehtiramla xatırlanır. Ümummilli Lider mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu bir ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürərək, onun həyata keçirilməsinə çalışmışdır. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanmışdır.

Dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olmasına, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasına, insanların şüurunda, həyat tərzində əsaslı dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Ölkədə həyata keçirilmiş özəlləşdirmə prosesi hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq niyyətinə xidmət etmişdir. İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi müstəqil respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə, dünya təsərrüfat sisteminə inteqrasiyasına etibarlı zəmin yaratmışdır.

Ümummilli Liderin rəhbərliyi altında həyata keçirilmiş struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yenilənməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Ümummilli Lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır.

İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

Ümumilikdə, 1993-2003-cü illərdə ölkədə həyata keçirilən siyasət deməyə əsas verir ki, ulu öndər Heydər Əliyev milli ideyanın təcəssümü olan məqsədlərin gerçəkləşməsi, ələlxüsus da müstəqillik amilinin praktik şəkildə bərqərar olması baxımından, ilk növbədə, iqtisadiyyatda çoxşaxəli islahatların aparılmasını, davamlı inkişaf üçün bazisin formalaşmasını vacib saymışdır. Ulu Öndərin müstəqil Azərbaycana rəhbərliyi illərində milli iqtisadiyyatda köklü islahatlar aparılmış, sosialyönümlü bazar iqtisadiyyatına keçidin ümdə prinsipləri müəyyənləşdirilmiş, torpaq islahatı kimi çətin və ağrılı proses, habelə özəlləşdirmənin birinci mərhələsi uğurla başa çatdırılmış, milli sahibkarlığın inkişafı üçün zəruri qanunvericilik aktları qəbul edilmiş, respublikanın dünya təsərrüfat sisteminə inteqrasiyası sürətlənmişdir.

## İslahatlarda müasirləşmə və novatorluq

Fəaliyyəti ilə zaman və məkanın fövqündə dayanan tarixin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri kimi Ulu Öndər Azərbaycanın inkişafında qazandığı uğur və nailiyyətlərin davamlı olmasını təmin etmək üçün böyük fədakarlıqlar göstərmişdir. Bunun ən bariz göstəricilərindən biri də Ulu Öndərin özündən sonra ölkəmizə layiqincə rəhbərlik edərək qazanılan uğurların davamlılığını təmin edəcək, xalqın alternativsiz liderinə çevriləcək davamçı - siyasi varis yetişdirməsindədir.

XX əsrin sonlarına doğru müstəqil dövlətçiliyin bərpasına nail olmuş, onu möhkəmləndirərək yeni inkişaf magistralına çıxarmış müdrik xalqımız taleyini məhz qəlbən inandığı, etimad göstərdiyi siyasi liderə etibar etmişdir. “Əsl siyasət - konkret, real iş görməkdən ibarətdir” deyərək fəaliyyətə başlayan cənab İlham Əliyev hələ 2003-cü ildə verdiyi vədə sadiq qalaraq ötən 15 illik fəaliyyəti ilə hər bir Azərbaycan vətəndaşının layiqli Prezidenti olduğunu sübuta yetirmişdir.

2018-ci ilin 11 aprel seçkilərində xalqın böyük dəstəyi ilə Azərbaycana rəhbərlik kimi məsuliyyətli missiyanı növbəti mərhələdə də üzərinə götürmüş cənab İlham Əliyev ona göstərilən etimadı fəaliyyəti ilə hər zaman doğruldur, Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün əzmlə, qətiyyətlə çalışır. Təkcə onu demək kifayətdir ki, respublikamız son prezident seçkilərindən sonra daha da güclənmiş, zənginləşmiş, hərtərəfli inkişaf yolunda yeni uğurlara imza atmış, insan amili həyata keçirilən siyasətin ana axarında yer almışdır.

Ulu öndər Heydər Əliyevin idarəçilik ənənələrini yeni dövrün tələblərinə uyğun daha da zənginləşdirən cənab İlham Əliyev xalqın problemlərinə, arzu və istəklərinə həssaslıqla yanaşır və bunu bütün məmurların qarşısında zəruri tələb kimi qoyur. Fəaliyyətində xalqına güvənən, arxalanan dövlət başçısı xal-



qa xidmətdən böyük şərəf duyur. “Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı” deyən ölkə başçısı idarəçilikdə, fəaliyyətdə, düşüncədə yenilik və sivil dəyərlərin tətbiqini zəruri sayır.

Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya son 15 ildə Azərbaycanın bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi, TAP, TANAP layihələrinin reallaşdırılması, üç süni peykin orbitə buraxılması Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərini daha da gücləndirmişdir. Dövlət başçısı cənab İlham Əliyevin diplomatik səyləri nəticəsində Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də uğurla gerçəkləşmiş, respublikamızın Şərqlə Qərb arasında tranzit-kommunikasiya imkanları genişlənmişdir. Xatırlatmaq yerinə düşər ki, 2018-ci il mayın 29-da Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi olmuş, bu layihələrin icrası Azərbaycanın regionda və Avropada geoiqtisadi əhəmiyyətini artırmışdır. Eyni zamanda, 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi mühüm hadisələrdən olmuşdur.

Səmərəli idarəetmə sistemi xalqın mənafeyinə cavab verən strateji əhəmiyyətli qərarların qəbulu ilə yanaşı, konkret zamanda həyata keçirilmiş tədbirlər sistemi ilə bağlı müntəzəm olaraq ictimaiyyətin məlumatlandırılmasını da zəruri tələb kimi önə çıxarır. Səmərəli və şəffaf idarəçiliyi hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmiş Azərbaycan Prezidenti cənab

İlham Əliyevin idarəçilik konsepsiyasında da bu mütərəqqi prinsip daim önə çəkilir. Dövlət başçısı ötən 15 ildə ayrı-ayrı məmurlara etimad meyarını məhz onların fəaliyyətinə nəzərən müəyyənləşdirərək, ictimaiyyətin görülmüş işlər, qarşıda duran məqsədlər və həyata keçiriləcək layihələr barədə məlumatlandırılmasını zəruri saymışdır. Bu cür hesabatlar konkret dövrdə əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsi, qazanılmış uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, mövcud problemlər ətrafında obyektiv müzakirələrin aparılması, bu problemlərin həlli yollarının tapılması üçün səmərəli vasitəyə çevrilmişdir.

İdarəçiliyin asanlaşdırılması və bu zaman vətəndaş məmnunluğunun təmin edilməsi də strateji xətt olaraq diqqət mərkəzindədir. Prezident 2018-ci ilin avqust ayında əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlərin göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyini (DOST) yaratmışdır. Ümumilikdə, “ASAN xidmət”, “ASAN Kommunal” və “DOST” kimi modern xidmət mərkəzlərinin yaradılması Azərbaycanda müasir idarəetmə sisteminin mahiyyətini, fəlsəfəsini açır.

## Regionların inkişafında tarazlıq təmin edilir

2003-cü ildən etibarən Azərbaycanın iqtisadi sahədə həyata keçirdiyi siyasətin uğurlarını şərtləndirən əsas amillərdən biri də məhz inkişafın mərkəz və regionlar üzrə tarazlı xarakter daşıması, rentabelli istehsal sahələrinin ölkənin bütün regionlarını əhatə etməsi, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, infrastrukturun yeniləşdirilməsi tədbirləri ilə sıx şəkildə bağlıdır. Məhz bu iqtisadi strategiya regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməsinə imkan yaratmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2004-cü il 11 fevral tarixli “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”, 2009-cu il 14 aprel tarixli “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” və 2014-cü il 27 fevral tarixli “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” regionların iqtisadi inkişafında tamamilə yeni səhifə açmış, insanların kəndlərdən şəhərlərə axınının qarşısını almış, xüsusilə də qeyri-neft sektorunun, sahibkarlığın inkişafına xüsusi təkan vermişdir.

2004-2018-ci illər ərzində reallaşdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının təhlili göstərir ki, ötən müddətdə ölkənin makroiqtisadi göstəricilərində regionların xüsusi çəkisi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Yerlərdə sahibkarlığın inkişafının sürətləndirilməsi, yerli istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması nəticəsində əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində böyük uğurlar əldə olunmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunmuş konfransda bölgələrin inkişafı üçün dördüncü dövlət proqramının da hazırlandığını diqqətə çatdırmışdır. Ötən illərdə görülən tədbirlərə rəğmən əlavə dəyərin formalaşdırılmasında özünü göstərən fərq sayca dördüncü dövlət proqramının qəbulunu da zəruri etmişdir. Azərbaycan Prezidentinin 2019-cu il 29 yanvar tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” qarşıdakı illərdə bölgələrin inkişafına yeni təkan olacaqdır.

Statistik göstəricilər son 15 ildə Azərbaycan iqtisadiyyatının inkişafını və dayanıqlılığını bir daha təsdiq edir: Ötən dövrdə ölkənin strateji valyuta ehtiyatları 27 dəfə artaraq 46,7 milyard ABŞ dollarına çatmışdır. 2004-2018-ci illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,7 dəfə artmışdır. Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərcləri dinamik olaraq artmış, investisiya xərcləri dövlət büdcəsində əhəmiyyətli çəkiyə malik olmuşdur.

Görülən tədbirlərin nəticəsi olaraq bölgələrdəki rayon və şəhərlərlə paytaxt Bakı şəhərinin inkişafı arasındakı fərq getdikcə azalır. Dövlət proqramları nəticəsində regionların tərəqqisinə 50 milyard manatdan çox vəsaitin yatırılması inkişafdakı tarazlığı təmin etmişdir. Yalnız onu demək kifayətdir ki, 2019-cu ildə Azərbaycanın 34 şəhər və rayonu mərkəzdən dotasiya almadan özünü maliyyələşdirir. Son 15 ildə açılmış 1,9 milyona yaxın iş yerinin 50 faizdən çoxunun məhz regionların payına düşməsi də Azərbaycan Prezidenti cənab İlham Əliyevin regional siyasətinin uğurlarının əyani təcəssümüdür.

Son 15 ildə ölkə Prezidentinin sahibkarlığın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər ardıcıllığı, səmərəliliyi və sistemliliyi ilə diqqəti cəlb etmişdir. Hələ 2004-cü il 1 fevral tarixində Bakı Biznes Mərkəzində yerli sahibkarlarla görüşən dövlət başçısı onları narahat edən məsələləri diqqətlə dinləmiş, sahibkarları dəstəklədiyini, iş adamlarına gələcəkdə də lazımi köməyi göstərəcəyini bəyan etmişdir. Dövlət rəhbəri inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını pisləmiş, bu münasibət konkret qərarlarla müşayiət olunmuşdur. Antiinhisar fəaliyyətinin gücləndirilməsi, inflyasiyanın qarşısının alınması üçün əsaslı tədbirlərin görülməsi, qeydiyyat sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad məhkəmələrinin yaradılması və s. kimi tədbirlər bunun əyani təcəssümüdür.

Cənab İlham Əliyev Azərbaycanı müasir və qüdrətli dövlətə çevirmək məqsədini sadəcə deklorativ bəyanatlarla ifadə etmir, onun konkret icra mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində konkret addımlar atır. Dövlət başçısının son illərdə imzaladığı “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası və “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri” kimi konseptual əhəmiyyətli sənədlər deməyə əsas verir ki, cənab Prezident uzunmüddətli inkişaf strategiyasının dərin elmi proqnozlar əsasında işlənib hazırlanmasına çalışır.

Azərbaycan Respublikası Prezidentinin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətinin, eləcə də Maliyyə Bazarlarına Nəzarət Palatasının, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Maliyyə Sabitliyi və Turizm, habelə Apelyasiya şuralarının, Sosial Tədqiqatlar Mərkəzinin yaradılması iqtisadi islahatların səmərəliliyini yüksəltmişdir. Dövlət başçısının siyasi iradəsilə həyata keçirilən sistemli islahatlar - imzalanan fərman və sərəncamlar respublikamızın postneft dövrünə uyğunlaşdırılması, sahibkarların hərtərəfli dəstəklənməsi yolu ilə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədini önə çəkir. Bu baxımdan 3 fevral 2016-cı il tarixli “Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuralarının yaradılması haqqında”, 20 aprel 2016-cı il tarixli “İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri”nin təsdiq edilməsi haqqında, 2016-cı il 19 may tarixli “Dövlət əmlakının özəlləşdirilməsi prosesinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” və “Bəzi tikinti obyektlərinin istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” fərmanları, habelə 2016-cı il 21 may tarixli fərmanla təsdiq edilmiş “Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və digər buraxılış sistemlərindən istifadə Qaydaları”, 21 aprel 2016-cı il tarixli “Azərbaycan Respublikasında “Sahibkarlar Günü”nün təsis edilməsi haqqında” və digər sənədlər ölkədə sahibkarlığın inkişafına ciddi təkan vermiş, ölkəmizin qlobal böhran meyillərinə çevik müqavimətini təmin etmişdir.

## İnsan amili daim prioritetdir

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclası respublikamızın dinamik inkişaf yolunda olduğunu bir daha təsdiqləmişdir. İclasda səslənən statistik rəqəmlər dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən islahatların səmərəliliyini və insan amilinin yüksəlişinə xidmət etdiyini bir daha təsdiqləyir. Hesabat dövründə dövlət büdcəsinə vergi və gömrük orqanlarının xətti ilə 200 milyon manatdan artıq əlavə vəsait toplanmış, ümumi daxili məhsul 3 faiz, sənaye istehsalı 4,4 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır. Hesabat dövründə kənd təsərrüfatının 3,6 faiz, əhalinin gəlirlərinin 5,5 faiz artması, inflyasiyanın aşağı həddə - 2,1 faiz civarında olması, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayənin qoyulması inkişafdakı müsbət dinamikanın əyani göstəriciləri kimi qeyd olunmalıdır.

Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı aparılan siyasət, görülmüş işlər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymət alır. Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan Respublikası 2016-cı ildəki 63-cü yerdən 2019-cu ildə 25-ci yerə yüksəlməyə nail olmuşdur. Davos İqtisadi Forumunun hesabatına əsasən Azərbaycan iqtisadiyyatı 2018-ci ildə rəqabət qabiliyyətinə görə 138 ölkə arasında 35-ci yerdədir və ardıcıl olaraq 8 ildir ki, MDB ölkələri arasında birincidir. Forumun “İnklüziv İnkişaf İndeksi 2018” hesabatında Azərbaycan ən yaxşı inkişaf etməkdə olan ölkələr sırasında üçüncü, MDB məkanında isə birinci yerdə qərarlaşmışdır. BMT İnkişaf Proqramının insan inkişafı indeksinə görə Azərbaycan “orta insan inkişafı” qrupu ölkələrini tərk edərək, “yüksək insan inkişafı” ölkələri kateqoriyasına daxil olmuşdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin son 15 ildə yürütdüyü sosialyönümlü siyasətin məqsədi təkcə sosial bərabərsizliyi aradan götürmək olmayıb, həm də onu tarazlaşdırmaq, vətəndaşların maddi vəziyyətindəki fərqliliyi aradan qaldırmaq, kəskin təbəqələşməyə yol verməmək, cəmiyyətin bütün üzvlərinin layiqli həyat səviyyəsini təmin etməkdən ibarətdir. Dövlət başçısı tərəfindən son 10 ildə imzalanmış sərəncamlar sosial təminat və yoxsulluğun səviyyəsinin aşağı salınması baxımından mühüm əhəmiyyətə malikdir. Buna misal olaraq “Əhalinin təbii qazdan istifadəsi üzrə yaranmış borclarının silinməsi tədbirləri barədə” 29 dekabr 2009-cu il tarixli fərmanı xatırlatmaq mümkündür. Fərmana əsasən, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və istehlak edilmiş təbii qazın dəyərinin ödənilməsində yaranmış vəziyyətin tənzimlənməsi məqsədilə vətəndaşların 1 oktyabr 2009-cu il tarixinə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyinə yaranmış 327 milyon manat məbləğində borcları silinmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 aprel tarixli fərmanı ilə əhalinin “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə olan 294,2 milyon manat borcunun dövlət büdcəsi hesabına silinməsi də dövlətin sosialyönümlü siyasətinin növbəti təcəssümü olmuşdur. 2012-ci ilin iyun ayının 1-dən vətəndaşların SSRİ dövründən əmanət bankında qalmış əmanətlərinin indeksasiya olunaraq qaytarılması da respublikamızın sosialyönümlü iqtisadi siyasətinin mahiyyətindən irəli gəlmişdir.

Bu və digər faktlar göstərir ki, ölkədə bazar iqtisadiyyatı prinsiplərinin cəmiyyətdə möhkəm dayaqlar tapması, iqtisadiyyatın liberallaşdırılması sosial himayəyə ehtiyacı olan vətəndaşların maraqları ilə qətiyyən ziddiyyətə girmir. Əksinə, əldə edilən dividendlər insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir. 2018-ci ilin 11 aprel seçkilərindən sonra sosialyönümlü islahatlarda keyfiyyətcə yeni mərhələnin başlanması, xüsusən də bu ilin əvvəlindən başlayaraq əhalinin aztəminatlı və imtiyazlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycanın “sosial dövlət” konsepsiyasına sadiqliyinin bariz göstəricisidir.

Yürüdülən uğurlu iqtisadi siyasət - çevik və şəffaf vergi-gömrük islahatları nəticəsində son aylarda ölkəmizin maliyyə imkanlarının daha da artması ilə paralel dövlət başçısı uğurlu sosial islahatlar paketinin reallaşdırılmasını təmin etmişdir. Təkcə onu demək lazımdır ki, bu prosesin əyani təzahürü olaraq icbari tibbi sığorta sisteminin tətbiqi təmin edilmiş, bu sistemin 2020-ci ildən bütün ölkədə tətbiqi nəzərdə tutulmuşdur. Daha sonra, İşsizlikdən Sığorta Fondunun yaradılması, məşğulluq strategiyasının qəbulu, ünvanlı sosial yardımın əhatə dairəsinin genişləndirilməsi, özünüməşğulluq proqramlarının təmin edilməsi sosial islahatların mühüm tərkib hissəsidir.

Qısaca demək kifayətdir ki, son aylarda Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı şəhid olmuş insanların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəniş edilmiş, minimum əməkhaqqı, sosial müavinət, pensiya və tələbə təqaüdləri artırılmış, zəlzələdən ciddi zərər çəkmiş vətəndaşlar üçün evlərin inşasına başlanılmış, devalvasiya nəticəsində banklara borcu yaranmış vətəndaşların borcları müəyyən şərtlər çərçivəsində kompensasiya edilmiş, yanğından zərər çəkmiş sahibkarlara kompensasiya ödənilmiş, mavi yanacağa görə nəzərdə tutulmuş limit artırılmışdır. Bu və digər sosialyönümlü addımlar, şübhəsiz, vətəndaşlar tərəfindən də rəğbətlə qarşılanır.

İslahatların hazırkı mərhələsində mütərəqqi meyarlara söykənən çevik idarəetmə modelinin formalaşdırılması Azərbaycan üçün də kifayət qədər aktualdır. Son illərdə həyata keçirilən kadr islahatlarının əsas məqsədini əhalinin sosial rifahının yaxşılaşdırılması, neftdən asılı olmayan dayanıqlı inkişaf strategiyasının formalaşdırılması ilə yanaşı, ümumilikdə, dövlət idarəçilik fəlsəfəsinin dəyişdirilməsi təşkil edir. Cənab İlham Əliyev, ilk növbədə, vətəndaşların mənafeyini düşünərək dövlət idarəetməsi ilə bağlı bu və digər qərarlar qəbul edir, struktur islahatları həyata keçirir. Dövlət başçısının 2019-cu il 14 yanvar tarixli “Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” fərmanı idarəetmə sistemində çevikliyin və səmərəliliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslər müasir islahatçı baxışın tətbiqini aktuallaşdırdığından dövlət başçısı hökumətin bu çağırışlara hazır olmasını da son dərəcə vacib sayır. 2017-ci il 21 fevral tarixdə Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması, bu mənada post-neft dövründə Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatların davamlılığını və dövlət idarəçiliyinin səmərəliliyini yüksəltmək məqsədinə xidmət etmişdir.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi uğurlu fəaliyyəti bu prosesin sürətlənməsini təmin etmiş, idarəçiliyə yeni nəfəs gətirmişdir. Cəmiyyətdə mütləq çoxluğun qənaəti bundan ibarətdir ki, Heydər Əliyev Fondunun prezidenti kimi vətənpərvər fəaliyyəti, humanizmə, mərhəmətə, nəcibliyə söykənən layihələri ilə böyük nüfuz qazanmış və yüksək idarəçilik keyfiyyətlərini təsdiqləmiş Mehriban xanım Əliyeva üzərinə götürdüyü məsuliyyətli missiya ilə ölkə başçısının və xalqın etimadını inamla doğruldur.

2018-ci ilin 11 aprel seçkilərinin nəticəsi olaraq Azərbaycan cəmiyyəti uzun illərin sərt sınaqlarından üzüağ çıxaraq yüksək etimad qazanmış Heydər Əliyev siyasətinin davamlılığının təmini, hər bir fərdin mənafeyinə hesablanmış siyasi, hüquqi, sosial-iqtisadi islahatların ardıcıl şəkildə davam etdirilməsi naminə ciddi siyasi iradə ortaya qoymuşdur.

Cəmiyyətdə mütləq çoxluğun alternativsiz milli lider olaraq qəbul etdiyi cənab İlham Əliyev Azərbaycanın perspektiv inkişafı üçün qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirmək, ölkəmizi yaxın illərdə ən müasir və inkişaf etmiş dövlətə çevirmək istiqamətində əzmlə, yorulmadan, qətiyyətlə çalışır.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş Naziri.**

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasından 21 il keçir



*“Konstitusiya Məhkəməsinin simasında milli dövlətçiliyimizi, Konstitusiyaya əsaslanan hüquq qaydasını, ən əsası isə insan və vətəndaş hüquq və azadlıqlarını həqiqətən müdafiə edən mötəbər təsisata malikik”.*

**Azərbaycan xalqının ümummilli lideri**
**Heydər ƏLİYEV**

Bu günlərdə ali konstitusiya ədalət mühakiməsi orqanı olan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasının növbəti ildönümü tamam olur.

Bu növbəti ildönümü Azərbaycanın müasir tarixində xalqımız üçün taleyüklü hadisə olan - ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbəri seçilməsinin 50 illik əlamətdar yubileyinə təsadüf edir. 1969-cu il iyulun 14-də qəbul edilmiş qərar Azərbaycan dövlətçiliyinin inkişafının yeni və dönməz vektoru olmaqla, müstəqillik həsrətinə qalmış millət üçün yeni tarix hesablamasına çevrilmişdir. Bu iki tarix arasında əlaqə çox rəmzi xarakter daşıyır, çünki ölkəmizdə konstitusionalizm ideyalarının təsis edilməsi, o cümlədən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin simasında konstitusiya nəzarəti orqanının yaradılması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır.

Müasir Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin ölkənin siyasi rəhbərliyinə qayıdışından sonra bütün sahələrdə sabitliyin təmin olunması ölkədə çoxşaxəli islahatların aparılmasına şərait yaratdı. Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunu əsas inkişaf istiqaməti olaraq seçən Azərbaycanda qısa müddətdə irimiqyaslı qanunvericilik islahatları reallaşdırılaraq əhəmiyyətli nailiyyətlər əldə edildi. Başlanılmış köklü hüquqi islahatlar çərçivəsində ən mühüm hadisələrdən biri, şübhəsiz ki, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi oldu. Bununla da ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış bu tarixi sənəd dövlətçiliyimizin inkişafında dönüş yaradaraq keyfiyyətcə tamamilə yeni səhifə açdı.

Konstitusiyada müasir sivil vətəndaş cəmiyyətinin inkişaf istiqamətlərini müəyyənləşdirən, hüquqi dövlət quruculuğuna imkan verən mütərəqqi ideya və dəyərlər geniş şəkildə öz əksini tapmışdır.

Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil etdi. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması kimi təməl prinsiplər təsbit olunmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi isə dövlət siyasətinin əsas istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilmişdir.

1995-ci ildə Əsas Qanunun qəbulu ölkədə genişmiqyaslı qanunvericilik islahatlarının həyata keçirilməsinə təkan verərək digər bir çox sahələrdə olduğu kimi, məhkəmə-hüquq islahatlarının da əsasını qoydu.

Hüquqi dövlətin təməlini qanunların aliliyinin təmin olunması, o cümlədən insan hüquqlarının və azadlıqlarının müdafiəsi təşkil edir. Bu baxımdan bu və ya digər ölkənin demokratik inkişafı üçün Konstitusiyanın qəbul edilməsi ilə yanaşı, onun aliliyinin təmin olunması, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin konstitusiya prinsipləri çərçivəsindən kənara çıxmaması üçün konstitusiya nəzarəti institutunun yaradılması da olduqca vacib idi.

Fəaliyyətə başladığı gündən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ölkə Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etmək kimi ali məqsədə xidmət etmiş və üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışmışdır. Bu illər ərzində Konstitusiya Məhkəməsi Azərbaycanda hüquqi, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak edərək ölkəmizdə konstitusionalizm ideyalarının həyata keçirilməsinə, hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafına, hər kəsin Konstitusiyaya və qanunlara hörmət və ehtiramının, ədalət, azadlıq və humanizm kimi prinsiplərin möhkəmləndirilməsinə töhfələr vermişdir.

Qeyd edilməlidir ki, müasir dövrdə konstitusiya ədalət mühakiməsi hüququn aliliyinin təmin olunmasının mühüm və səmərəli mexanizmlərindən biri, eyni zamanda, demokratik dəyərlərin hakim olduğu hüquqi dövlətin ayrılmaz atributlarından biri kimi qəbul olunur.

Bu gün məhkəmə sistemi vətəndaş cəmiyyətinin və beləliklə də hüquqi dövlətin inkişafında özünəməxsus və əvəzedilməz rol oynayır. Şübhəsiz ki, Konstitusiya ilə məhkəmələrin üzərinə düşən vəzifələrin qanunvericiliklə müəyyən edilmiş qaydada effektiv şəkildə həyata keçirilməsi son nəticədə cəmiyyətin dövlətimizin adından qəbul edilən məhkəmə aktlarına etimadının gücləndirilməsi üçün xüsusi zəmin yaradır.

Ümumilikdə müasir dövrdə məhkəmə hakimiyyətini cəmiyyətdə cərəyan edən proseslərdən təcrid edilmiş şəkildə təsəvvür etmək qeyri-mümkündür. Şübhəsiz ki, bu proseslər mütərəqqi xarakterli olduqda onların digər sahələrə, o cümlədən məhkəmə sisteminə şamil edilməsi yalnız müsbət nəticələr verə bilər.

Biz hamımız onun şahidiyik ki, ölkəmizdə bütün sahələrdə ən qabaqcıl yanaşmalar tətbiq olunur və bu gün Azərbaycan dünya birliyinin inkişaf etmiş tamhüquqlu üzvü kimi qəbul edilir. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən ölkəmizdə ayrı-ayrı sahələrdə müasir ideyaların tətbiqinə hər zaman dəstək verilir, bir çox sahələrdə olduğu kimi, məhkəmə sisteminin də müasirləşdirilməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla həyata keçirilir.

Məhkəmə-hüquq sisteminin müasir və mütərəqqi prinsiplər əsasında təkmilləşdirilməsindən bəhs edərkən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərman ədalət mühakiməsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün olduqca mühüm addım olduğu vurğulanmalıdır. Bu Fərman dövlətimizin başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü olaraq həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsi olmaqla, bu sahədə islahatların dərinləşdirilməsini, yeni inkişaf mərhələsində müasir çağırışlara uyğun davam etdirilməsini şərtləndirir.

Fərman məhkəmə sistemində islahatların aparılması və müasir texnologiyaların tətbiqinin vacibliyini bəyan etməklə, məhkəmələr üçün ədalətlilik, qərəzsizlik, süründürməçiliyə yol verilməməsi, aşkarlıq, şəffaflıq kimi mühüm prinsiplərin daim aktual olduğunu bir daha vurğulayıb.

Vətəndaşların hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin daha etibarlı təmin olunmasına, məhkəmə hakimiyyətinin nüfuzunun artırılmasına, ədalət mühakiməsinə ictimai etimadın yüksəldilməsinə xidmət edən Fərmanda məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, işlərə baxılmasının keyfiyyətinin artırılması, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsi qarşıya vəzifə kimi qoyulmuşdur.

Əminliklə demək olar ki, dövlətimizin başçısının imzaladığı bu Fərman ədalət mühakiməsi prosesində keyfiyyətcə yeni və cəmiyyət üçün çox vacib yanaşmaların tətbiqinə mühüm təkan verəcəkdir.

Konstitusiya Məhkəməsinin fəaliyyətindən bəhs edərkən qeyd edilməlidir ki, Məhkəmənin əsas səlahiyyətləri Konstitusiyanın 130-cu maddəsində əksini tapmışdır.

Qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarının, bələdiyyə və məhkəmə aktlarının Konstitusiyaya və hüquqi qüvvəsinə görə daha üstün olan aktlara uyğunluğunun yoxlanılması Konstitusiya Məhkəməsinin əsas səlahiyyətlərindən biridir. Bu səlahiyyəti vasitəsilə Konstitusiya Məhkəməsi Konstitusiyanın və qanunların aliliyini təmin etmiş olur. Burada mühüm məqam ondan ibarətdir ki, yoxlanılan norma məhz Əsas Qanunun hərfinə və ruhuna, onun təməl prinsiplərinə uyğunluq baxımından qiymətləndirilir və Konstitusiya ilə uyğunsuzluq təşkil etdiyi halda qüvvədən salınmış normalar qanunvericilik sistemindən kənarlaşdırılmış olur.

Konstitusiya Məhkəməsinin mühüm səlahiyyətlərindən biri Konstitusiya və qanunların şərh edilməsidir. Burada əsas məqsəd bu və ya digər normanın məzmununu aydınlaşdırmaqla, onun vahid tətbiqi qaydasını müəyyən etməkdir. İnsan hüquq və azadlıqlarının həyata keçirilməsi ilə bağlı qanunvericilik müddəalarının bəzən birmənalı dərk edilməməsi mübahisəli hüquq məsələlərinin məhkəmələr tərəfindən həlli zamanı müxtəlif kolliziyaların ortaya çıxmasına səbəb olur. Bu isə son nəticədə vətəndaşların hüquqlarının və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsinin dövlət təminatını zəiflədən hüquqtətbiqetmə təcrübəsinin yaranmasına gətirib çıxarır.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş qərarlar sırasında məhkəmələrin müraciətləri əsasında Konstitusiya və qanunların şərhinə dair çıxarılmış qərarlar xüsusi çəkiyə malikdir. Ümumiyyətlə, Konstitusiya Məhkəməsi hər zaman digər məhkəmələrlə qarşılıqlı əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Son dövrlərdə Konstitusiya Məhkəməsinə məhkəmələr tərəfindən edilən müraciətlər məhkəmələrin daha ədalətli və əsaslandırılmış qərarlar qəbul etməsi zərurətindən irəli gəlir. Belə ki, məhkəmələrin müraciətləri əsasında qəbul edilmiş qərarlar qanunvericilikdə mövcud olan qeyri-müəyyənliklərin aradan qaldırılmasına şərait yaratmaqla, hüquqi müəyyənlik prinsipinin təmin edilməsi baxımından ümumi məhkəmə təcrübəsinin formalaşmasına mühüm töhfə verir.

Konstitusiya Məhkəməsi Plenumunun qərarlarının, xüsusilə də bu qərarlarda ifadə olunan hüquqi mövqelərin məhkəmələr tərəfindən birmənalı tətbiqi məhkəmə təcrübəsinin stabilliyinə, eyni zamanda, Konstitusiya Məhkəməsi Plenumunun qərarlarının məcburiliyi barədə qanunvericiliyin tələblərinin yerinə yetirilməsinə xidmət edir və nəticə etibarilə hüquqtətbiqetmə təcrübəsinin təkmilləşdirilməsi baxımından vacib əhəmiyyətə malikdir.

Konstitusiya Məhkəməsinin səlahiyyətlərindən bəhs edərkən fərdi şikayətləri xüsusilə qeyd etmək lazımdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə 2002-ci ildə keçirilmiş konstitusiya islahatlarından və 2004-cü ildə “Konstitusiya Məhkəməsi haqqında” yeni Qanunun qüvvəyə minməsindən sonra Konstitusiya Məhkəməsində fərdi şikayətlər institutu fəaliyyətə başladı. Bu gün təcrübə onu göstərir ki, fərdi şikayət institutu Konstitusiyanın aliliyinin təmin edilməsinin səmərəli vasitələrindən biri kimi insan hüquq və azadlıqlarının müdafiəsi baxımından kifayət qədər faydalı və effektiv imkanlar yaradır.

Konstitusiya Məhkəməsinə hər hansı bir formada, o cümlədən Məhkəmənin rəsmi internet səhifəsi vasitəsilə elektron şəkildə göndərilən şikayət, ərizə və məktublara diqqətlə baxılır, araşdırılaraq müvafiq qaydada cavablandırılır.

Xüsusilə qeyd olunmalıdır ki, bu günlərdə Konstitusiya Məhkəməsinin Plenumu özünün 400-cü qərarını qəbul edib.

Keçən fəaliyyət ili ərzində Plenum tərəfindən sorğu, müraciət və konstitusiya şikayətləri əsasında bir sıra mühüm qərarlar qəbul edilmişdir. Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş “Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair” 2019-cu il 18 mart tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki qərarlarında ifadə edilmiş hüquqi mövqelərə istinad edərək qeyd etmişdir ki, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır.

Həmin Qərarında Plenum belə nəticəyə gəlmişdir ki, mülki məhkəmə icraatında Konstitusiyanın 125-ci maddəsinin VII hissəsinin “Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir” müddəası Konstitusiyanın 127-ci maddəsinin II, IV və VII hissələrində, 129-cu maddəsinin III hissəsində təsbit olunmuş ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi, faktlar əsasında və qanuna müvafiq keçirilməsi, məhkəmə qərarının qanuna və sübutlara əsaslanmasına dair ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri ilə əlaqəli şəkildə tətbiq olunmalıdır.

Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı zamanı məhkəmələr ədalət mühakiməsini çəkişmə və tərəflərin bərabərliyi prinsipinə riayət etməklə, tərəflərin təqdim etdiyi sübutlar və faktlar əsasında həyata keçirməli, öz qərarlarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, təqdim etdikləri və Mülki Prosessual Məcəllənin tələblərinə müvafiq olaraq əldə edilmiş sübutlarla əsaslandırmalı, həmin sübutların araşdırılmasından irəli gələn həqiqəti müəyyən etməlidir.

Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında qəbul edilmiş “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1-ci, 92.10.3-cü və 244.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” 2019-cu il 28 mart tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu hüquqi yardım almaq hüququ ilə bağlı qeyd etmişdir ki, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun ictimai əhəmiyyəti ondan ibarətdir ki, bu hüquq öz mahiyyətinə görə insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinin vacib təminatıdır. Bu hüququn funksiyalarından biri olan preventiv funksiya nəinki şəxsin öz hüquq və azadlıqlarını qanuna uyğun həyata keçirməsinə kömək edir, həmçinin dövlət hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin insan və vətəndaş hüquq və azadlıqlarının qeyri-qanuni məhdudlaşdırılmasına yönəlmiş hərəkətlərinin qarşısının alınmasına zəmanət verir.

Bu Qərarda vurğulanmışdır ki, şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeyinin qorunması üçün müdafiəçi müdafiə etdiyi şəxsin iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirak etməklə öz prosessual vəzifələrini yerinə yetirir. Cinayət prosesində müdafiəçinin qanunvericiliklə nəzərdə tutulmuş prosessual hüquqlarının və vəzifələrinin həyata keçirilməsinin təmin edilməsi son nəticədə ədalət mühakiməsinin həyata keçirilməsinə mühüm töhfə kimi çıxış edir.

Konstitusiya Məhkəməsinin Plenumu, həmçinin qeyd etmişdir ki, istintaq və ya digər prosessual hərəkətlərdə müdafiəçinin mütləq iştirak etməli olduğu hallar mövcud olmadıqda, eləcə də şübhəli və ya təqsirləndirən şəxs bunu tələb etmədikdə cinayət prosesini həyata keçirən orqan tərəfindən müdafiəçinin belə hərəkətlərin aparılmasında iştirakının tələb edilməsi yolverilməzdir.

Həmin Qərarında Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlmişdir ki, Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinin tələbləri baxımından, həmin Məcəllənin 244-cü maddəsində nəzərdə tutulmuş axtarış və ya götürmə istintaq hərəkətləri şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı olmadan aparıldıqda, müdafiəçi müdafiə etdiyi şəxsin razılığı olmadan həmin prosessual hərəkətlərdə iştirakdan imtina edə bilməz.

Bakı Apellyasiya Məhkəməsinin digər bir müraciəti əsasında qəbul edilmiş “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin şərh edilməsinə dair” 2019-cu il 24 aprel tarixli Qərarında qeyd edilmişdir ki, Mülki Məcəllənin 2.5-ci maddəsi, qanunvericilikdə ayrı qaydanın nəzərdə tutulduğu hallar istisna olmaqla, digər bütün hallarda mülki qanunvericilik müddəalarının bir tərəfin digər tərəfə inzibati və ya digər hakimiyyət tabeliyinə əsaslanan əmlak münasibətlərinə, o cümlədən vergi, maliyyə və inzibati münasibətlərə tətbiq edilməsini prinsipial şəkildə qadağan edir. Bu cür qadağa, mülki hüquq başda olmaqla, bütün xüsusi hüquq sahələrinə xas olan hüquqi tənzimləmə metodlarının publik hüquq sahələrinə, o cümlədən inzibati, sosial təminat, vergi hüququna xas tənzimləmə metodlarından əhəmiyyətli dərəcədə fərqli olmasından irəli gəlir.

Həmin Qərarında Konstitusiya Məhkəməsinin Plenumu vurğulamışdır ki, qanunverici “əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa” müddəasını Mülki Məcəllənin 2.5-ci maddəsində ifadə edərkən, ümumi (publik) hüquq münasibətlərində mülki qanunvericiliyin tətbiqini tam istisna etməmişdir. Bu, yalnız qanunvericinin birbaşa göstərişinin olduğu halda mümkündür. Məsələn, Vergi Məcəlləsinin 78.2-ci maddəsinə müvafiq olaraq, vergi öhdəliklərinin yerinə yetirilməsi Mülki Məcəllədə nəzərdə tutulmuş ardıcıllıqla həyata keçirilir.

Sumqayıt Apellyasiya Məhkəməsinin müraciəti əsasında qəbul edilmiş “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsi baxımından həmin Məcəllənin 109-cu maddəsinin şərh edilməsinə dair” 2019-cu il 3 may tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, İnzibati Xətalar Məcəlləsinin qərardadlardan bəhs edən nə ümumi, nə də xüsusi normalarında məhkəmə qərardadlarından şikayət verilməsinin nəzərdə tutulmaması onunla izah olunur ki, qərardad məsələni mahiyyəti üzrə həll etmir, şəxsin hüquq və azadlıqlarını məhdudlaşdırmır, mübahisənin gələcəkdə davam etdirilməsini istisna etmir, o, yalnız işin ədalətli həll olunmasına xidmət edir. Eyni zamanda, qanunverici, “prosessual qənaət” prinsipini rəhbər tutaraq məhkəmə prosesinin lüzumsuz olaraq uzanmasının qarşısını almaq məqsədi ilə hər bir qərardad üzrə şikayətin verilməsini mümkünsüz hesab etmişdir.

Adıçəkilən Qərarda Plenum belə nəticəyə gəlmişdir ki, İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsinin tələbləri baxımından həmin Məcəllənin 109-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işin baxılmasına hazırlanması zamanı qəbul edilən qərardadlardan apellyasiya şikayəti vermək hüququ istisna edilir.

Həmçinin vurğulanmışdır ki, inzibati protokolu tərtib etmək səlahiyyəti olan orqan (vəzifəli şəxs) həmin protokolu tərtib edərkən İnzibati Xətalar Məcəlləsinin tələblərinə ciddi riayət etməlidir. Məhkəmələr protokol və ya digər sənədlərin düzgün tərtib olunmadığını və ya təqdim edilmiş materialların natamam olduğunu müəyyən etdikdə “prosessual qənaət” və “işlərə ağlabatan müddətdə baxılması” prinsiplərini rəhbər tutaraq sənədləri onu tərtib etmiş orqana, vəzifəli şəxsə qərardadla qaytarmazdan əvvəl, həmin qüsur və natamamlıqların aradan qaldırılması üçün bütün imkan və vasitələrdən istifadə etməlidir.

Qeyd olunduğu kimi, cənab Prezident tərəfindən imzalanan “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərmanda cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, eyni zamanda, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün görülən tədbirlərin gücləndirilməli olması vurğulanmışdır.

Məhz Fərmanın tələblərini nəzərə alaraq, Konstitusiya Məhkəməsi Plenumunun qəbul etdiyi son qərarlardan biri olan Davud Zöhrab oğlu Bağırovun şikayəti üzrə 2019-cu il 3 iyun tarixli Qərarında xüsusilə vurğulanmışdır ki, Plenumun qərarında göstərilən hüquqi mövqelər nəzərə alınmadan, yenidən eyni ziddiyyətli yanaşmalara yol verməklə yanlış qərarın qəbul edilməsi Konstitusiyanın 60-cı maddəsinin II hissəsinin tələblərinə zidd olmaqla işə baxılma müddətinin əsassız uzanmasına və süründürməçiliyə səbəb olur.

Həmçinin qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsi Plenumunun bir sıra digər qərarlarında da işlərə ağlabatan müddətdə baxılmasının, eyni zamanda, süründürməçiliyə yol verilməməsinin vacibliyi ilə bağlı mühüm hüquqi mövqelər formalaşdırılmışdır. Belə ki, N.Rzazadə və R.Rzazadənin şikayəti üzrə 2018-ci il 11 dekabr tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu oxşar hüquqi mövqedən çıxış etmişdir. Həmin Qərarda ədalətli məhkəmə araşdırması hüququ ilə bağlı qeyd edilmişdir ki, bu hüququn mühüm elementlərindən biri də hər hansı bir işə məhkəmələr tərəfindən ağlabatan müddətdə baxılmasıdır. Məhkəmə icraatının ağlabatan müddətdə aparılması vaxtında qanuni və əsaslı məhkəmə aktı qəbul edilməsi ilə proses iştirakçılarının hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiə edilməsi məqsədi daşıyır.

Həmçinin Konstitusiya Məhkəməsinin Plenumu xüsusi olaraq vurğulamışdır ki, eyni işə dəfələrlə məhkəmələr tərəfindən baxılması üç pilləli məhkəmə sisteminin təyinatına, məhkəmə hüquq islahatlarının məqsədlərinə, ədalət mühakiməsini həyata keçirən məhkəmələrin qanunla nəzərdə tutulmuş vəzifələrinə uyğun gəlməyərək məhkəmənin nüfuzuna mənfi təsir göstərir.

Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilən qərarlardan bəhs edərkən qeyd edilməlidir ki, bu qərarlarda Konstitusiyanın aliliyi və birbaşa hüquqi qüvvəsi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları, habelə insan hüquqlarının və azadlıqlarının prioriteti prinsipi nəzərə alınmaqla mühüm hüquqi mövqelər formalaşdırılır. Sözsüz ki, Konstitusiya Məhkəməsinin qərarının yüksək hüquqi qüvvəsi onun bütün hissələrinə, o cümlədən hüquqi mövqelərinə də şamil edilir. Digər mühüm bir məqam isə ondan ibarətdir ki, Konstitusiya Məhkəməsinin hüquqi mövqelərinin hüquqi qüvvəsi ümumi xarakter daşıdığından, yalnız konstitusiya işinin predmetini təşkil edən hala deyil, hüquq tətbiqetmə təcrübəsində rast gəlinən analoji hallara da şamil edilir. Bu mənada həmin qərarlar yalnız məhkəmələr deyil, həmçinin bütün hüquq tətbiqedici orqanlar üçün əhəmiyyətli mənbə qismində çıxış edir.

Həmçinin qeyd edilməsi vacibdir ki, Konstitusiya Məhkəməsinin təcrübəsinin tətbiqi prosesində hər hansı bir hüquqi mövqeyə istinad edilməsi zamanı onun düzgün və müvafiq şəkildə istifadə edilməsi, ümumi kontekstdən, mahiyyətindən və mənasından kənar işlədilməməsi xüsusi əhəmiyyət kəsb edir.

İstənilən konstitusiya nəzarəti orqanı kimi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi konstitusiya ədalət mühakiməsinin qabaqcıl inkişaf tendensiyalarının öyrənilməsinə hər zaman önəm verir.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsinin Plenumu hər zaman beynəlxalq təcrübəyə xüsusi diqqət yetirməklə, qəbul edilən qərarlarında beynəlxalq hüquqi aktların, o cümlədən “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasının müddəalarına, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna, həmçinin Respublikamızın tərəfdar çıxdığı beynəlxalq sazişlərə, xarici ölkələrin konstitusiya nəzarəti orqanlarının mütərəqqi məhkəmə təcrübəsinə istinadlar edir.

Digər tərəfdən, Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı ilk illərdən beynəlxalq əlaqələrinin genişləndirilməsinə xüsusi önəm vermiş, xarici ölkələrin konstitusiya nəzarəti orqanları ilə, bir sıra mötəbər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətləri qurmağa nail ola bilmişdir. Bu gün Məhkəmə Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransının, Avropa Konstitusiya Məhkəmələri Konfransının, Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutlar Assosiasiyasının, habelə Avrasiya Konstitusiya Nəzarəti Orqanları Assosiasiyasının tamhüquqlu üzvüdür.

Fəaliyyət göstərdiyi bu illər ərzində Konstitusiya Məhkəməsi Əsas Qanunun fundamental prinsiplərinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyəti ilə ali dövlət orqanları sırasında özünəməxsus yerini tutmağa nail olmuşdur. Əlbəttə ki, Məhkəmənin bu fəaliyyəti xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün də Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən hüquqi dövlət quruculuğu sayəsində mümkün olmuşdur.

Konstitusiya Məhkəməsi hər zaman ulu öndər Heydər Əliyevin dəstəyini hiss etmiş, bu gün isə Məhkəmənin fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dəstəklənir. Cənab Prezident tərəfindən Məhkəməyə göstərilən bu etimad çox qürurverici olmaqla, eyni zamanda, bizim hər birimiz üçün böyük məsuliyyəti nəzərdə tutur. Konstitusiya Məhkəməsi bundan sonra da bu etimadı doğrultmaq üçün qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaqdır.

Konstitusiya Məhkəməsinin 20 illik yubileyi münasibətilə dövlətimizin başçısı cənab İlham Əliyevin Konstitusiya Məhkəməsinin kollektivinə ünvanladığı təbrik məktubunda Məhkəmənin fəaliyyətinin fərqləndirilməsi, həmçinin qarşımızda duran prioritet istiqamətləri və vəzifələri müəyyən etmişdir.

Bu gün Azərbaycan sürətlə yeniləşir və müasirləşir. Sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkə olaraq Azərbaycan dövlətinin öz siyasi dəstxəti, dövlətçilik siması, inkişaf yolu vardır. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf konsepsiyası son 15 ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu günün çağırışları nəzərə alınaraq daha da təkmilləşdirilmiş, məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə mütərəqqi dəyişikliklərin edilməsi nəticəsində ölkəmizdə yüksək inkişaf dinamikasına nail olunmuşdur.

Həmçinin səmərəli dövlət idarəçiliyinin, təhlükəsizliyin və sabitliyin gücləndirilməsi ilə bağlı görülən tədbirlər müstəqilliyimizin daha da möhkəmləndirilməsini, dövlətimizin nüfuzunun artmasını, eyni zamanda, xalqımızın rifah halının yüksəlməsini təmin etmişdir.

Ölkəmiz hər il mötəbər humanitar və iqtisadi tədbirlərə, idman yarışlarına, musiqi və incəsənət festivallarına, konfrans və sərgilərə layiqincə ev sahibliyi edir. Həqiqətdir ki, bu gün ölkəmiz bir sıra beynəlxalq layihələrin, ikitərəfli və çoxtərəfli görüşlərin nəinki iştirakçısı, həmçinin təşəbbüskarı qismində çıxış edir. Bakı son illərdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi mərkəzə çevrilmişdir. Bu cür dünyamiqyaslı görüşlərin mütəmadi olaraq Bakıda keçirilməsi bir daha sübut edir ki, ölkəmiz etibarlı tərəfdaş olmaqla, əməkdaşlığa hər zaman açıqdır.

Müşahidə edilən bu cür davamlı inkişaf və tərəqqi şübhəsiz ki, dövlətimizin başçısının siyasi iradəsi, uğurlu daxili və xarici siyasəti nəticəsində mümkün olmuşdur.

Əminik ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu fəaliyyətinə dəstək olaraq Əsas Qanunun aliliyinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının səmərəli müdafiəsi işinə bundan sonra da öz töhfəsini verməkdə davam edəcəkdir.

**Fərhad ABDULLAYEV,**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri.**

# İnsan Hüquqları üzrə Avropa komissarı ilə Ədliyyə Nazirliyində görüş

**İyulun 11-də Ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç ilə görüşüb.**



Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Avropa Şurası arasında səmərəli əməkdaşlığı vurğulayan nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqlarının təminatına xidmət edən məhkəmə-hüquq islahatları, məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmənin tətbiqi, regional məhkəmələrin fəaliyyəti barədə məlumat verib. F.Məmmədov bu sahədə islahatların dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Fərmanı ilə yeni mərhələdə davam etdirildiyini deyib.

İnsan hüquqları üzrə Avropa komissarı kimi ilk dəfə ölkəmizə səfərindən məmnunluğunu ifadə edən qonaq səfərin məqsədinin insan haqlarının, o cümlədən məcburi köçkünlərin hüquqlarının təmini sahəsində dəstək göstərmək olduğunu bildirib, məhkəmə-hüquq sistemindəki islahatları və yenilikləri maraqla qarşılayıb.

Səfər zamanı penitensiar müəssisələrə baş çəkmək üçün yaradılmış imkana görə minnətdarlığını bildirən xanım D.Miyatoviç Azərbaycan tərəfinin "açıq qapı" siyasətini qarşılıqlı əməkdaşlığın və etimadın yaxşı təzahürü kimi dəyərləndirib, cinayət qanunvericiliyinin dekriminallaşdırılması məsələsinə toxunub.

Komissar cəza siyasətinin humanistləşdirilməsinə dair dövlətimizin başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən, Cinayət Məcəlləsinə əsaslı dəyişikliklər olunaraq bir sıra əməllərin dekriminallaşdırıldığı, humanistləşdirmə tədbirlərinin bu gün də davam etdirildiyi barədə məlumatlandırılıb.

Görüşdə, həmçinin qanunvericiliyin təkmilləşdirilməsi, Avropa Məhkəməsinin qərarlarının icrası, bölgələrdə hüquq institutlarının inkişafı, vətəndaşlara göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi, vəkillərin Ədliyyə Akademiyasında tədrisi və digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb, maraq doğuran suallara aydınlıq gətirilib.

Tədbirdə Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri Zoltan Hernyes və Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov iştirak ediblər.

**AZƏRTAC**

# Avropa Şurasının insan hüquqları üzrə komissarı Baş Prokurorluqda olub

**Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov ölkəmizdə səfərdə olan Avropa Şurasının insan hüquqları üzrə komissarı xanım Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Zakir Qaralov Avropa Şurası ilə əməkdaşlığa böyük önəm verdiyini xüsusi vurğulayaraq, müstəqilliyin bərpasından sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş məqsədyönlü işlər barədə ətraflı məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə-hüquq islahatlarının uğurla davam etdirildiyini bildirən Baş prokuror müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsi sisteminin formalaşdırılması, "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə əlaqədar Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər, eləcə də "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülmüş işlər barədə qonaqları məlumatlandırıb.

Xalqımızın ağrılı yeri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmizin ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olması, bir milyondan artıq qaçqın və məcburi köçkünlərimizin doğma yurdlarından didərgin düşməsini qeyd edən Baş prokuror Ermənistanın işğalına məruz qalmış ərazilərimizdə qondarma "məhkəmələrin" qurulduğunu bildirib, Dilqəm Əsgərovun və Şahbaz Quliyevin doğma torpağında casus adı ilə həbs edilərək əsirlikdə saxlanılmasının insan hüquqlarının pozuntusunun bariz nümunəsi olduğunu Dunya Miyatoviçin diqqətinə çatdırıb.

Ölkəmizlə bağlı xoş təəssüratlarını bildirən xanım Dunya Miyatoviç Avropa Şurasının insan hüquqları üzrə komissarı vəzifəsində Azərbaycana ilk səfərindən məmnunluğunu ifadə edib. O, qaçqınların və məcburi köçkünlərin üzləşdikləri çətinliklərin həlli istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb, Avropa İnsan Hüquqları Konvensiyasının müəyyən etdiyi standartlar, eləcə də ölkəmizdə vəkillərin fəaliyyəti ilə bağlı danışıb.

Söhbət zamanı, həmçinin dövlətimizin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına sadiqliyinin bariz nümunəsi kimi prokurorluq orqanları tərəfindən cinayət işlərinin istintaqı, dövlət ittihamının müdafiəsinin və qanunların icrasına nəzarətin həyata keçirilməsi sahəsində fəaliyyəti zamanı insan hüquq və azadlıqlarının qorunmasının əsas prioritet olması qonağın nəzərinə çatdırılıb.

Görüşdə maraq kəsb edən sahələr üzrə səmərəli fəaliyyətin davam etdirilməsinin əhəmiyyəti vurğulanaraq digər konkret mövzular ətrafında faydalı fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Energetika Nazirliyi BMT İnkişaf Proqramı ilə Niyyət Protokolu imzalayıb

**Energetika Nazirliyi və BMT İnkişaf Proqramı (BMTİP) arasında Niyyət Protokolu imzalanıb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Energetika naziri Pərviz Şahbazovla Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının rezident nümayəndəsi Alessandro Frakassettinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. P.Şahbazov bildirib ki, BMTİP ilə əməkdaşlıq ümumi maraqlara cavab verən prioritetlərin reallaşmasına və energetika sektorunda islahatların aparılmasına töhfə verəcək.

A.Frakassetti isə təmsil etdiyi qurumun fəaliyyətində enerji sahəsinin mühüm istiqamətlərdən biri olduğunu, energetika sektorunda qlobal və milli səviyyədə məsələlərin həllinə lazımi dəstəyin veriləcəyini bildirib.

Görüş zamanı Energetika Nazirliyi və BMT İnkişaf Proqramı arasında Niyyət Protokolu imzalanıb. Protokolda Azərbaycanın enerji dayanıqlılığının təmin edilməsi, iqlim dəyişmələri, enerji səmərəliliyi, bərpaolunan enerji mənbələrindən istifadə, emissiyaların azaldılması və ətraf mühitin qorunması kimi layihələrin həyata keçirilməsində BMT İnkişaf Proqramı ilə əməkdaşlıq öz əksini tapıb. Həmçinin sənəddə "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamından irəli gələn tədbirlərin həyata keçirilməsində BMTİP ilə əməkdaşlığın daha da genişləndirilməsi nəzərdə tutulur.

**AZƏRTAC**

# Bakıda Azərbaycan-Fransa biznes forumu keçirilib





**İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Fransa Sahibkarlar Təşkilatı - MEDEF-in təşkilatçılığı ilə iyulun 11-də Bakıda Azərbaycan-Fransa biznes forumu keçirilib. Tədbirdə Azərbaycan və Fransa rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, tikinti, nəqliyyat, logistika, İKT, enerji, maliyyə, təhsil, turizm, ticarət, ətraf mühit, konsaltinq və sair sahələrdə fəaliyyət göstərən 150-dən çox sahibkar iştirak edib.**

AZƏRTAC xəbər verir ki, İqtisadiyyat naziri Şahin Mustafayev çıxışında Azərbaycan-Fransa əlaqələrinin inkişaf etdiyini, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizdə səfərdə olan Fransa Sahibkarlar Təşkilatına - MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul etməsinin ölkələrimiz arasında əlaqələrə verilən böyük önəmin göstəricisi olduğunu vurğulayıb.

Azərbaycan-Fransa iqtisadi əməkdaşlığının əsas istiqamətlərindən olan ticarət əlaqələri barədə məlumat verən nazir bildirib ki, Azərbaycan Fransanın Cənubi Qafqaz regionu üzrə əsas ticarət tərəfdaşıdır. Təsadüfi deyildir ki, ötən il Fransanın Cənubi Qafqazın 3 ölkəsi ilə ümumi dövriyyəsinin 62,4 faizi məhz Azərbaycanın payına düşüb. Bu ilin ilk 5 ayında iki ölkə arasında ticarət dövriyyəsi keçən ilin eyni dövrü ilə müqayisədə 53 faizdən çox artıb.

İqtisadiyyat naziri qeyd edib ki, qarşılıqlı ticarət həcminin daha da artırılması, strukturunun şaxələndirilməsi, qeyri-neft məhsullarının Fransaya ixracının genişləndirilməsi üçün potensial böyükdür. Azərbaycanda sənaye, xidmət, rabitə, ticarət, bank və sığorta, kənd təsərrüfatı sahələrində 45 Fransa kapitallı şirkət fəaliyyət göstərir. Fransa şirkətləri Azərbaycanda həyata keçirilən və dəyəri 6,2 milyard ABŞ dolları olan layihələrdə podratçı qismində iştirak edib.

İnvestisiyalar sahəsində də uğurlu əməkdaşlığı qeyd edən Ş.Mustafayev Azərbaycan tərəfindən Fransaya 2,6 milyard dollar, Fransa tərəfindən isə Azərbaycan iqtisadiyyatına 2,2 milyard dollardan çox investisiya yatırıldığını bildirib.

O, Fransa ilə iqtisadi əlaqələrlə yanaşı, humanitar sahədə də əməkdaşlığı diqqətə çatdırıb və bu istiqamətdə Heydər Əliyev Fondunun uğurlu fəaliyyətini vurğulayıb.

Nazir Azərbaycanda həyata keçirilən islahatlar, əldə olunan nailiyyətlər, ölkəmizin geniş tranzit potensialı, reallaşdırılan regional layihələr barədə məlumat verib. Qeyd edib ki, Azərbaycanın uğurları beynəlxalq maliyyə institutları tərəfindən də yüksək qiymətləndirilir. Belə ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın islahatçı 10 ölkəsi siyahısına daxil edilib. Vurğulayıb ki, "Azərbaycan 2019 - Avropa İttifaqı Biznes Mühiti Hesabatı"nda Avropa İttifaqı şirkətlərinin 74 faizi cari makroiqtisadi vəziyyəti güclü və qənaətbəxş, 90 faizi isə makroiqtisadi vəziyyətin perspektivlərini yaxşı və sabit kimi qiymətləndiriblər. Avropa İttifaqının builki "Azərbaycan investisiya məkanı kimi" sorğusunda isə iştirak etmiş şirkətlərin 75 faizi "Azərbaycana yenidən investisiya qoyardınızmı?" sualına müsbət cavab verib, ölkəmizdəki təhlükəsizliyi, siyasi və sosial sabitliyi yüksək qiymətləndiriblər.

Ş.Mustafayev iki ölkə arasında iqtisadiyyatın bir çox sahələrində, o cümlədən ticarət və investisiya, kiçik və orta biznes, enerji, nəqliyyat, kənd təsərrüfatı, sənaye, təhsil, turizm, İKT, maliyyə sahələrində əməkdaşlıq imkanlarının geniş olduğunu bildirib, fransalı iş adamlarını bu imkanlardan yararlanmağa dəvət edib.

Fransa Sahibkarlar Təşkilatı - MEDEF Biznes Şurasının prezidenti Jofrua Ru de Bezió ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına önəm verdiyini qeyd edib, Azərbaycandakı biznes mühitinin əlverişliliyini vurğulayıb, "Doing Business 2019" hesabatındakı mövqeyindən məmnunluğunu ifadə edib. Keçirilən biznes forumun əlaqələrin inkişafı üçün səmərəli platforma olduğunu bildirən Jofrua Ru de Bezió ölkəmizin cəlbedici turizm potensialını, bir sıra rəqabətqabiliyyətli məhsulların, xüsusilə yüksək keyfiyyətli şərab istehsalçısı olduğunu vurğulayıb, iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Fransanın Azərbaycandakı səfiri Orelia Buşez ölkəsinin Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirib. Səfir Azərbaycanda aparılan iqtisadi islahatların xarici şirkətlər, o cümlədən Fransa şirkətləri üçün əlverişli imkanlar yaratdığını bildirib.

Sonra AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev Azərbaycanın biznes və investisiya mühitinə dair təqdimatla çıxış edib.

Biznes forum iş adamları arasında ikitərəfli görüşlərlə davam edib, əməkdaşlığın genişləndirilməsi və yeni əlaqələrin qurulması barədə müzakirələr aparılıb.

**AZƏRTAC**

# Azərbaycanın Xarici İşlər naziri Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı ilə görüşüb

**Xarici İşlər naziri Elmar Məmmədyarov Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Dunya Miyatoviçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**



Nazir Elmar Məmmədyarov Avropa Şurasının yeni Baş katibinin seçilməsi məsələsini qeyd edərək, təşkilatın yeni rəhbəri ilə işləməyə hazır olduğumuzu bildirib.

Ölkəmizə səfəri çərçivəsində müvafiq dövlət qurumları ilə faydalı görüşlər keçirdiyini, cəzaçəkmə məntəqəsinə baş çəkdiyini diqqətə çatdıran D.Miyatoviç səfər proqramının təşkili üçün Azərbaycan tərəfinə təşəkkürünü bildirib. Komissar azərbaycanlı məcburi köçkünlərlə görüşdüyünü qeyd edib, onların ləyaqətli yaşamaları üçün Azərbaycan hökuməti tərəfindən görülmüş işləri yüksək qiymətləndirib.

Öz növbəsində, nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə keçirilmiş görüşlər, eləcə də substantiv məsələlər üzrə danışıqların irəli aparılması yolları barədə məlumat verib. Azərbaycanın danışıqlar prosesində mövqeyinin dəyişilməz olduğunu vurğulayan nazir Elmar Məmmədyarov Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərimizdən çıxarılması və azərbaycanlı məcburi köçkünlərin öz doğma yurd-yuvalarına geri qayıtmasının vacibliyini vurğulayıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq və narahatlıq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

**AZƏRTAC**

# Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Avropa Şurasının insan hüquqları üzrə komissarı ilə görüş olub

**İyulun 11-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev ölkəmizdə səfərdə olan Avropa Şurasının insan hüquqları üzrə komissarı xanım Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Komitədən AZƏRTAC-a bildiriblər ki, sədr Rövşən Rzayev qonağa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyon 200 mindən çox soydaşımızın üzləşdiyi məhrumiyyətlər, məruz qaldıqları maddi və mənəvi itkilər, bu problemin həllinə beynəlxalq təşkilatların münasibəti, dövlətimizin öz imkanları daxilində gördüyü işlər və qarşıda duran vəzifələr haqqında məlumat verib. Qeyd olunub ki, təcavüzkar Ermənistan hələ də Azərbaycan ərazilərini işğal altında saxlamaqla bu torpaqların əzəli sahibi olan yüz minlərlə insanın hüquqlarını pozmaqda davam edir.

Komitə sədri bildirib ki, Azərbaycanda qaçqınlar və məcburi köçkünlərlə iş üzrə düşünülmüş və effektiv dövlət siyasəti həyata keçirilir. Prezident İlham Əliyev məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını, maddi rifahının yüksəldilməsini sosial siyasətin prioritetlərindən biri kimi müəyyənləşdirib. Birinci vitse-prezident xanım Mehriban Əliyeva məcburi köçkünlərin problemlərinin həlli üçün məqsədyönlü iş aparır.

Xanım Dunya Miyatoviç görüşə və ətraflı məlumata görə təşəkkür edib, Dövlət Komitəsi ilə əməkdaşlığı yüksək qiymətləndirdiyini, budəfəki səfərində əsas məqsədinin insan və vətəndaş hüquq və azadlıqlarının təmini sahəsində hərtərəfli yardım göstərmək, bu prosesə dəstək vermək olduğunu bildirib.

İyul ayının 9-da Bakının Yasamal rayonunda yerləşən Azərbaycan Texniki Universitetinin yataqxanası və Sabunçu rayonunda salınan "Şuşa şəhərciyi"ndə məcburi köçkünlərlə görüş keçirdiyini xatırladan Dunya Miyatoviç ölkəmizə yenə səfər edəcəyini söyləyib.

Görüşdə bir sıra digər məsələlər də müzakirə olunub, qonaqları maraqlandıran suallar ətraflı cavablandırılıb.

**AZƏRTAC**

# Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib

**İyulun 11-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib.**

Prezident İlham Əliyev sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların, o cümlədən məcburi köçkünlərin müraciətlərinə diqqət və həssaslıq göstərilməsini bütün dövlət qurumlarının mühüm və təxirəsalınmaz vəzifəsi kimi müəyyənləşdirib. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində də vətəndaşların öz müraciət hüquqlarını mövcud qanunvericilik əsasında sərbəst və rahat həyata keçirməsi üçün zəruri şərait yaradılıb. Vətəndaşların hər gün komitənin vəzifəli şəxsləri tərəfindən qəbulu təşkil edilir. Hər həftənin çərşənbə axşamı günü isə əvvəlcədən qəbula yazılmaqla Dövlət Komitəsi sədrinin qəbulu keçirilir.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev əvvəlcədən qəbula yazılmış vətəndaşlarla fərdi qaydada görüşüb. Onların müraciətləri, əsasən, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq, status və digər məsələlərlə bağlı olub.

Qəbulda 50-dən çox vətəndaşın müraciəti dinlənilib və müvafiq qaydada qeydə alınaraq rəsmiləşdirilib.

Məcburi köçkünlərə bildirilib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin problemlərinin həllini sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülür, Bakıda və regionlarda yeni yaşayış kompleksləri inşa edilir. Məcburi köçkünlərin mənzil, təhsil, sağlamlıq problemlərinin həllinə Birinci vitse-prezident xanım Mehriban Əliyeva da xüsusi diqqət və qayğı göstərir, bu sahədə mühüm işlər görür.

Qəbulda olan vətəndaşlara bildirilib ki, onların qaldırdıqları məsələlər araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə öz həllini tapacaq.

**AZƏRTAC**

# Ümummilli lider Heydər Əliyev bütün ömrünü doğma xalqına həsr etdi

## *Azərbaycanın XX əsr tarixinin əlli ildən çox bir dövrü dahi Heydər Əliyev şəxsiyyəti, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır*

**Ümummilli lider Heydər Əliyev yeni Azərbaycanın qurucusudur. O, bu quruculuğa hələ XX əsrin 40-cı illərindən başlamışdı. Heydər Əliyev qarşısına çıxan bütün maneələri və çətinlikləri dəf edərək SSRİ-nin ölkəmizdə əsas dayağı olan Azərbaycan SSR Nazirlər Soveti nəzdindəki Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinədək ucaldı. Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) azərbaycanlılaşdırılması və xalqımızın düşmənlərindən təmizlənməsi kimi son dərəcə çətin və şərəfli işə ilk dəfə - hələ sovet rejiminin ən güclü vaxtında məhz Heydər Əliyev başlayıb.**



Bu gün bütün azərbaycanlılar, o cümlədən xalqımızın hər bir nümayəndəsi aydın dərk etməli və unutmamalıdırlar ki, daşnaklar xalqımıza qarşı həyata keçirdikləri 1918-ci ilin Mart soyqırımından sonra, 1920-ci ilin Sovet işğalında da yaxından iştirak etdilər. Bolşevik libası geyinmiş daşnaklar bu dəfə xalqımızı sovet hakimiyyətinin "quruculari" cildinə girərək qırdılar. Onlar Dövlət Təhlükəsizlik Komitəsində və Xalq Daxili İşlər Komissarlığında əsas mövqeləri ələ keçirdilər. Erməni "çekistləri" uydurma "cinayət işləri" qaldıraraq 20-30-cu illərdə xalqımıza qarşı kütləvi repressiyalar həyata keçirdilər, neçə-neçə Cavidləri, Müşfiqləri, Salman Mümtazları, Əhməd Cavadları - Azərbaycan xalqının qaymağını məhv etdilər. Bu baxımdan Heydər Əliyevin DTK-nı azərbaycanlılaşdırmaq sahəsindəki xidmətləri Vətən və xalq qarşısında adi xidmətlər deyil! Başqa sözlə, Heydər Əliyev qeyrətli və milli əhval-ruhiyyəli Vətən oğullarını DTK-ya işə cəlb etməklə, əslində xalqımızın namuslu övladlarına qarşı yönəlmiş növbəti təqiblərin qarşısını alırdı.

1969-cu ildə - Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildi və ölkənin ali idarəçilik sükanı arxasına keçdi. Bununla, Sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Azərbaycan xalqının tarixində Heydər Əliyev dövrü başlandı. Xalq ilk addımlarındanca Heydər Əliyevi rəğbətlə qarşıladı, onu sevdi və arxasınca getdi. Xalqın dahi oğlu Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək Azərbaycanı tərəqqi yoluna çıxarmaq siyasəti yeritməyə başladı. Bütün ömrünü doğma xalqına həsr etdi.

Böyük siyasətçi iqtisadiyyat və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə əvvəlcə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur, sonra da bütün xalqımızı həmin qərarların icrasına səfərbər edir, doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizə aparırdı. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək onun planlarının önündə gəlirdi. Bir sözlə, Vətənimizin müstəqilliyə gələn yolunu hələ o zaman Heydər Əliyev başlamışdı.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illərdə min cür maneələri, o cümlədən Kremldəki erməni qruplaşmasının törətdiyi əngəlləri dəf edərək Sovet hökumətinin Azərbaycanın hərtərəfli inkişafını təmin edən çox mühüm qərarlar qəbul etməsinə nail oldu. O, eyni qətiyyətlə də həmin qərarların yerinə yetirilməsini təmin etdi. Xalqın qurub-yaratmaq dühası tamamilə və bütünlüklə Azərbaycanın ümumi yüksəlişi üçün səfərbər olundu. Mərkəzdən Azərbaycanın inkişafı üçün ayrılan büdcə vəsaiti artırıldı. Nəticədə 1970-1985-ci illər Sovet Azərbaycanının tarixinə ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı.

Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı.

1970-1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. İri sənaye müəssisələri işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi. Heydər Əliyev Azərbaycanı böyük sovet məkanında ən tanınmış respublikaya çevirmiş, dünyada tanıtmışdır.

Heydər Əliyev bugünkü müstəqil Azərbaycanın milli ordusunun bünövrəsini hələ o zaman qoymağa başlamışdı. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü. Yaxşı yadımdadır. 70-ci illərin sonu idi. Ali məktəblərə tələbə qəbulu ilə əlaqədar olaraq Mərkəzi Komitədə keçirilən ənənəvi müşavirəyə dəvət olunmuşduq. Heydər Əliyev təhsil nazirini və bir-iki ali məktəb rektorunu dinlədikdən sonra, Ümumqoşun Komandirləri Məktəbinin rəisini çıxışa dəvət etdi və ona dərhal sual verdi - tələbələr içərisində yerli əhalinin nümayəndələri nə qədərdir? Aldığı cavabdan, yəni azərbaycanlıların hərbi təhsilə zəif cəlb olunmasından çox narazı qalan Heydər Əliyev Ümumqoşun Komandirləri Məktəbinin rəisini çox kəskin surətdə məzəmmət etdi və ona konkret tapşırıqlar verdi. İş elə gətirdi ki, sonrakı il ali məktəblərə qəbul ərəfəsində Mərkəzi Komitədə keçirilən müşavirədə mən yenə iştirak etməli oldum. Heydər Əliyev Ümumqoşun Komandirləri Məktəbinin rəisini yenə xitabət kürsüsünə dəvət etdi. Rəis bu dəfə də müxtəlif rəqəmlər gətirdi. Heydər Əliyev əvvəlki kimi, bu mühüm işin gedişi, xüsusilə yerli əhalinin faizi ilə maraqlandı. Müəyyən irəliləyiş olmasına baxmayaraq, yenə narazı qaldığını bildirdi.

Azərbaycanın gələcək inkişafına hesablanmış strateji əhəmiyyətli bütün bu işlərə Heydər Əliyev şəxsən başçılıq edirdi. Bir sözlə, daim xalqının gələcəyini düşünən böyük azərbaycanlı hələ o vaxtlar zamanı qabaqlayaraq XXI əsrin Azərbaycanı üçün güclü kadr potensialı yaradırdı.

Sovet dönəmində böyük ədib Hüseyn Cavidin cənazəsini Uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi. Heydər Əliyev bu addımı ilə hələ Sovet imperiyasının mövcud olduğu dövrdə sübut etdi ki, bu imperiya xalqımıza qarşı çox ağır cinayətlər törədib.

Doğma xalqı, el-obası üçün canını qoyan, elə buna görə də Moskvaya "irəli çəkilib" müəmmalı şəkildə həyat çırağı söndürülən, sonra da "millətçi" damğası yapışdırılan və adının çəkilməsi belə yasaq olunan Nəriman Nərimanovun əzəmətli heykəlini ucaltdırmaq Heydər Əliyev şəxsiyyətinin Vətən qarşısında böyük xidməti idi. Sonralar Nərimanova Ulyanovsk şəhərində də abidə ucaltdırmağa nail olan Heydər Əliyev bir daha sübut etdi ki, onu Vətən - xalq təəssübkeşliyindən döndərmək heç kəsin hünəri deyil, o cümlədən hakim sovet rejiminin də!

Heydər Əliyev Azərbaycan rəhbərliyinə gələn il - 1969-cu ildə Bakı Dövlət Universitetinin 50 illiyi tamam olurdu. Yubiley mərasimində, doğrusunu deyim, gözləmədiyimiz halda, respublikanın başçısı ana dilində çıxış etdi. Onda ziyalılarımız başa düşdü ki, respublika rəhbəri Azərbaycanın dirçəlişi yolunu tutub və bu istiqamətdə inkişafa doğru addımlayır.

Heydər Əliyevin 60-cı illərin sonu - 70-ci illərdə xalqımızın milli dirçəlişini necə cəsarətlə himayə etməsinin canlı şahidiyəm. O zaman mən ölkəmizdə milli oyanışın əsas mərkəzlərindən biri olan Azərbaycan Ensiklopediyasında fəaliyyət göstərirdim. Böyük mütəfəkkirimiz Rəsul Rzanın başçılıq etdiyi ensiklopediyaçılar və ensiklopediya ətrafında toplanmış qabaqcıl ziyalılar o zaman çox cəsarətli addımlar atırdılar. Xalqımızın təşəkkülündə türk etnoslarının həlledici rol oynaması, Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin tarixində mütərəqqi rol oynaması, Cümhuriyyət dövrünün xadimlərinə obyektiv qiymət verilməsi, 1920-ci ilin Aprel işğalı kimi bir çox məsələləri o zaman məhz ensiklopediyaçılar qaldırdılar. Bunu da unutmamışam ki, milli oyanışımızın düşmənləri bizi ləkələmək üçün dəridən-qabıqdan çıxırdılar. Bütün bunlara məhəl qoymayaraq Heydər Əliyev 1971-ci ilin martında məni ensiklopediya baş redaktorunun elmi işlər üzrə müavini kimi məsul bir vəzifə etibar etdi. Həmin illərdə biz, məhz onun dəstəyi sayəsində, ilk dəfə olaraq, Azərbaycanın tarix xəritələrini çap etdirə bildik. Çox çəkmədən bizə "millətçi", "burjua məfkurəçiləri", "Sovet hökumətinin və Rusiyanın düşmənləri" damğasını vurmağa çalışdılar. "Sapı özümüzdən olan baltalar" xalqımıza qarşı 1918-ci ilin Mart soyqırımını törətmiş Stepan Şaumyanın oğlunu - o zaman "Böyük Sovet Ensiklopediyası" baş redaktorunun birinci müavini işləyən Levon Şaumyanı Bakıya gətirdilər. Qara qüvvələr Azərbaycan ziyalılarına ləkə yaxmaq üçün özlərini oda-közə vurdular. Lakin onlar məqsədlərinə çata bilmədilər. Məhz Heydər Əliyevin sayəsində o zaman həm ensiklopediyaçılar, həm də ziyalılarımızın böyük bir dəstəsi, o cümlədən də mən, nəinki DTK-nın təqiblərinə düçar olmadıq, hətta o dövr üçün dəhşətli bir cəza sayılan partiya cəzasından da yaxa qurtara bildik!

Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX əsrin 70-ci illərində Azərbaycan xalqının milli azadlıq hərəkatının yeni mərhələyə - yüksəliş mərhələsinə daxil olması demək idi. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir.

AMEA-nın Tarix İnstitutunda Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin akademik səviyyədə hərtərəfli və dərindən tədqiq olunmasına xüsusi diqqət yetirilir. İnstitutda bu məqsədlə geniş tədqiqat işləri aparılır, dissertasiyalar yazılır. Elmi müəssisədə Heydər Əliyev irsini araşdıran ayrıca şöbə fəaliyyət göstərir. İnstitutda ilk dəfə olaraq ikicildlik "Heydər Əliyev" fundamental araşdırması (2013), "Heydər Əliyev. Azərbaycan elminin keşiyində" adlı ikicildlik sənədlər toplusu (2013) və beş kitabdan ibarət "Azərbaycan Respublikasının tarixi" (2016) nəşr olunub. Aparılan geniş tədqiqat işləri nəticəsində xalqımız öz tarixinə sahib çıxıb.

Dünya tarixinin dahi siyasətçisi Heydər Əliyevin Vətənin, doğma xalqın işıqlı gələcəyi naminə hələ ötən əsrin 40-cı illərindən başladığı şərəfli mübarizə yolunu bu gün Prezident İlham Əliyev uğurla və yaradıcılıqla inkişaf etdirərək Azərbaycan Respublikasının davamlı yüksəlişini təmin edir, ölkəmizi dünyanın ən qabaqcıl və söz sahibi olan dövlətlərindən birinə çevirib.

**Yaqub MAHMUDOV,**
**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tarix İnstitutunun direktoru,**
**Milli Məclisin deputatı, akademik.**

# Əbədi lider

**(əvvəli 1-ci səhifədə)**

Bu gün əsas nailiyyətimiz sayılan ictimai-siyasi sabitliyin davamlı prosesə çevrilməsi, onilliklər boyu xalqın iqtisadi rifahını təşkil edəcək yeni neft strategiyasının hazırlanması, dövlətin mövcudluğunu şərtləndirən hüquqi-siyasi islahatların aparılması və bu kimi həmin konsepsiyanın vacib elementlərindəndir.

Dahi şəxsiyyət Heydər Əliyev xəyalları gerçəyə çevirən bir siyasi lider idi. Memarı olduğu "Bakı-Ceyhan"ı əfsanədən reallığa çevirməyi bacardı. Dünyanın bir çox güclü dövlətlərinin köklü maraqlarının vahid çətiri altında toplandığı bu layihə Azərbaycan üçün çox mühüm siyasi-iqtisadi sipərə, uğur, rifah və qüdrət rəmzinə çevrildi. Əbədi liderimiz bunu görürdü və elə məhz bu cür də düşünüb qurmuşdu. O bilirdi ki, qara neft Azərbaycana, xalqına ağ günlər yaşadacaq, ölkəsini nəinki Türk aləminin, bütövlükdə dünya birliyinin öncülləri sırasına çıxaracaqdır.

Son bir neçə ildə ölkənin qoşulduğu hər yeni iqtisadi layihə, həyata keçirilən islahatlar Azərbaycan xalqını daha da irəli aparır, rahat güzərana və yüksək rifaha yaxınlaşdırır, cəmiyyətdəki sabitliyə dönməz xarakter verir, inteqrasiya proseslərini stimullaşdıraraq daha da intensivləşdirir. Bu isə öz növbəsində insanlarda dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu və hakimiyyətə, onun təməl məqsədlərinə vətəndaşların inam və etibarını daha da artırır.

Ulu öndər Heydər Əliyevin siyasi kursu bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənir - hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, mülki cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülən işlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlmişdir.

Fenomen şəxsiyyət və dahi siyasətçi Heydər Əliyevin onilliklərə söykənən təcrübəsi və siyasi uzaqgörənliyi iqtisadiyyat, milli siyasət, mədəniyyət, elm, təhsil, səhiyyə, xüsusən neft strategiyası, xarici siyasət, milli ordu quruculuğu və digər sahələrin yeni məzmunda formalaşdırılmasına rəvac verdi. Ulu öndər milli dövlətçiliyin təməllərinin sarsılmazlığını elə təmin etdi ki, bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşı bu dövlətçiliyin əbədi yaşayacağına qətiyyətlə inanır. Ümummilli lider sübut etdi ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, demokratik imicə, mənəvi yüksəlişə malik olmayan xalq güclü dövlət qura bilməz.

Bütün varlığı ilə dövlətçiliyə bağlı olan dahi şəxsiyyət Heydər Əliyev belə deyirdi: *"Biz nadir bir dövlətçilik irsinin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan dövlətimizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".* Onun Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də, məhz, onun güclü və nüfuzlu Azərbaycan dövlətini qurmasıdır. Bu gün siyasi məfkurə və baxışlarından asılı olmayaraq hamı birmənalı şəkildə qəbul edir ki, ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu və memarıdır.

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu siyasi və iqtisadi kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Müasir Azərbaycanın bugünkü hərtərəfli inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri ayrıca qeyd edilməyə layiqdir.

Bütün bu qeyd olunanlar belə nəticəyə gəlməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin siyasi və iqtisadi kursunun davam və inkişaf etdirilməsi nəticəsində əldə edilmiş uğurlar respublikamızın siyasi, iqtisadi və müdafiə qüdrətinin güclənməsinə, xalqımızın rifah halının yaxşılaşmasına və cəmiyyətin yeni inkişaf mərhələsinə qədəm qoymasına gətirib çıxarmışdır.

**Orxan AĞAYEV,**
**YAP Səbail rayon "Ekspertlər" ərazi təşkilatının sədri.**

# Bakıda "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu keçirilir

**İyulun 11-də Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə Bakıda "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu öz işinə başlayıb. Simpozium iştirakçıları Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Azərbaycanın tarixi-dini abidələri haqqında fotosərgi ilə tanış olublar.

Simpoziumun açılış mərasimində Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciətini oxuyub. (Müraciətin mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Tədbirdə açılış nitqi ilə çıxış edən Aİİ-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov İslamın Qafqaz xalqlarının həyatında tutduğu əhəmiyyətli mövqeyə, həmçinin qafqazlı alim və mütəfəkkirlərin İslam sivilizasiyasına bəxş etdikləri töhfələrə toxunub. O, İslama dərindən bələd olan ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü ilə 1998-ci il dekabrın 9-11-də Bakıda "İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumunun keçirildiyini nəzərə çatdırıb.

Aİİ-nin rektoru daha sonra qeyd edib ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dini dəyərlərə hörmət və qayğını, həmçinin dinlərarası tolerantlıq və multikultural ənənələrin təbliğinə əsaslanan bu nəcib siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir.

Ceyhun Məmmədov Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ideyalarını təbliğ və tətbiq edən nümunəvi bir ölkə kimi tanındığını vurğulayıb. Bildirib ki, bu ideyaların təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətləri xüsusi olaraq vurğulanmalıdır.

Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin olduğunu bildirən Ceyhun Məmmədov ölkəmizdə çox sayda məscid, kilsə və sinaqoqun dövlət vəsaiti hesabına tikilib, həmçinin təmir edildiyini diqqətə çatdırıb: "Qafqazın ən böyük məscidi olan "Heydər Məscidi"nin inşa edilib inanclı insanların istifadəsinə verilməsi, din sahəsində peşəkar kadrların hazırlanması məqsədilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması, dini-mənəvi sferaya dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bunun ən bariz nümunələrindəndir".

Ceyhun Məmmədov nitqində İslam sivilizasiyasının inkişafında qafqazlı, xüsusən də azərbaycanlı alimlərin özünəməxsus yerini vurğulayaraq, məşhur İslam alimləri haqqında bəhs edib.

On iki ölkədən alim və tədqiqatçıların iştirak etdiyi Simpoziumun Qafqazda İslam sivilizasiyasının tədqiqinə töhfə verəcəyini vurğulayan Aİİ-nin rektoru tədbirə uğurlar arzulayıb.

İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin Baş direktoru Halit Eren qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayaraq bildirib ki, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın rolu xüsusi vurğulanmalıdır. Azərbaycan İslam dünyasının bir parçası olduğundan, onun mədəniyyətində ərəb, İslam ünsürləri daha gözəçarpandır. Ona görə də İslam sivilizasiyasının Qafqazda yayılması, ilk növbədə, Azərbaycanla bağlı olduğundan, belə bir tədbirin burada reallaşması çox məqsədəuyğundur.

Halit Eren "İslam sivilizasiyası Qafqazda" mövzusunda ikinci dəfə keçirilən Beynəlxalq Simpoziumun təşkilatçısı olmaqdan xüsusi qürur duyduğunu nəzərə çatdırıb.

Milli Məclisin deputatı, AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun keçirilməsini əlamətdar hadisə adlandırıb. Qeyd edib ki, İslam dini Azərbaycanda yayıldığı vaxtdan dərin kök salıb, insanların davranışına, düşüncəsinə, mənəviyyat və mədəniyyətinə müəyyənedici təsir göstərib.

Qafqazın nadir bölgə olduğunu vurğulayan Gövhər Baxşəliyeva bildirib ki, bu region öz təbiətinə, coğrafi mövqeyinə və qədim zamanlardan məskunlaşmış, minillərboyu yaşamış insanlarının xüsusiyyətinə görə xarakterizə oluna bilər. Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edildiyini xatırladan akademik Gövhər Baxşəliyeva dahi şairin irsinin öyrənilməsində İslam dinini bilməyin vacib olduğunu vurğulayıb. Simpoziumun mövzusunun aktual olduğunu deyən akademik burada dinlənilən məruzələrin və aparılacaq müzakirələrin İslam sivilizasiyasının tədqiqinə töhfə verəcəyinə əmin olduğunu söyləyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İslam sivilizasiyasının Qafqaz xalqlarına bəxş etdiyi dəyərli töhfələri xüsusi vurğulayıb. Qeyd edib ki, Qafqaz xalqlarının, demək olar, əksəriyyəti İslam dininə ibadət edir. İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik, inkişaf, islami dəyərlər bəxş edib. İslam dini-mənəvi dəyərləri Qafqaz xalqlarının həyatında mühüm rol oynayır.

Mübariz Qurbanlı bildirib ki, ötən əsrin 90-cı illərində Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi vaxtda respublikamızda insan hüquq və azadlıqlarının təmin edilməsində, xalqımızın milli-mənəvi dəyərlərinin, dinlərarası dialoqun və dini tolerantlıq ənənələrinin qorunub inkişaf etdirilməsində mühüm addımlar atılıb, dini etiqad azadlığı tam şəkildə təmin edilib. Ulu Öndərin dövlətçilik prinsiplərini uğurla davam etdirən Prezident İlham Əliyev sabitliyə və tolerantlığa əsaslanan dövlət-din münasibətlərinin möhkəmləndirilməsi üçün əvəzolunmaz xidmətlər göstərməkdədir. Bu gün Azərbaycan İslam mədəni irsinin qorunub saxlanmasında və dünyaya olduğu kimi çatdırılmasında önəmli məkanlardan biri kimi tanınır. Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi sülhə, dostluğa, qarşılıqlı hörmətə, birgəyaşayışa çağırış və töhfədir. Azərbaycan nümunəsində dünyaya göstərildi ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə rahat şəkildə yaşaya bilər. Paytaxt Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum və digər bu kimi böyük beynəlxalq tədbirlərə ev sahibliyi edir.

Müasir dünyada irqçilik, ksenofobiya, islamofobiya təzahürlərinin getdikcə güclədiyini deyən Mübariz Qurbanlı Azərbaycan dövlətinin çox məsuliyyətli missiyanı öz üzərinə götürərək, müsəlman ölkələri arasında həmrəyliyin bərqərar olması və dünyada İslam dəyərlərinin təbliği üçün ardıcıl iş apardığını bildirib. Xatırladıb ki, Azərbaycan Prezidentinin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Sərəncamı bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesaj oldu.

Komitə sədri İslam dininin təkcə Azərbaycanda və Qafqazda deyil, bütün dünyada sülhün və əmin-amanlığın təmin olunmasında, qardaşlıq, dostluq münasibətlərinin qurulmasında əvəzsiz rol oynayacağına əminliyini bildirib, bu dinin doğru mənbələrdən araşdırılmasının, öyrənilməsinin və olduğu kimi təbliğ olunmasının zəruriliyini qeyd edib və Simpoziumun məhz buna xidmət etdiyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev vurğulayıb ki, ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir. Bu gün ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və təbliği, dini radikalizmə qarşı mübarizə istiqamətində aparılan işlər, əldə olunan uğurlar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsinin birgə əməkdaşlığı və fəaliyyəti nəticəsində mümkün olub. Salman Musayev dini konfessiyalara ulu öndər Heydər Əliyevin diqqət və qayğısından danışaraq bildirib ki, müstəqil Azərbaycanda tolerantlığın və dinlərarası dialoqun əsasları məhz Ümummilli Lider tərəfindən müəyyənləşdirilib. Hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Bugünkü tədbir Heydər Əliyev ideyalarının davamı olaraq böyük önəm kəsb edir. Bu Simpozium ölkəmizin İslam tarixində və coğrafiyasında tutduğu önəmli məqama, İslamın Qafqaza, ətraf ərazilərə yayılmasında Azərbaycanın tarixi roluna verilən dəyərdir. Bu, həm də dövlətimizin İslam dəyərlərinə diqqət və qayğısının bariz nümunəsidir.

"29 Mayıs" Universiteti Himayəçilər Şurasının sədri, professor Tayyar Altıkulaç Azərbaycanda dini etiqad azadlığının təmin olunmasından, dövlətin dinə qayğısından məmnunluğunu ifadə edib. Bildirib ki, Azərbaycan tolerantlıq mühiti ilə nəinki Qafqaz regionunda, həm də dünyada seçilir. Azərbaycanda insanların milli-mənəvi dəyərlərə bağlılığı, dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulması təqdirəlayiqdir.

"İzmir Katip Çelebi" Universitetinin rektoru, professor Saffet Köse qeyd edib ki, sovet dövründə Azərbaycanda ateizm dərsləri keçirilsə də, xalq öz dini inancını qoruyub və müstəqilliyinə qovuşduqdan sonra islami dəyərlərin təbliğini bərpa edib. Azərbaycanda din təhsili sahəsində mühüm addımlar atılıb. Azərbaycan İlahiyyat İnstitutunun yaradılması nəinki bu ölkə, bütövlükdə Qafqaz üçün çox önəmlidir. Azərbaycan tolerant ölkədir. Bu da onu Qafqazda multikultural dəyərlərin qorunduğu mərkəzə çevirir.

Rusiyanın Moskva İslam İnstitutunun rektoru, professor Damir Muxetdinov Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri, Rusiya Federasiyası Prezidenti yanında Dini Birliklərlə Qarşılıqlı Fəaliyyət Şurasının üzvü müfti şeyx Ravil Qaynutdinin Simpozium iştirakçılarına ünvanlanmış məktubunu oxuyub.

Çıxış edənlər II Beynəlxalq Simpoziumun Qafqazda İslam sivilizasiyasının yayılması tarixinin elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin obyektiv araşdırılması istiqamətində xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə çatdırıblar.

Qonaqlar, həmçinin Simpoziumun keçirilməsini aktual hesab edib, təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun tanıtım çarxı nümayiş etdirilib. Beynəlxalq Simpoziumun iştirakçıları xatirə şəkli çəkdiriblər.

Simpozium öz işini panellərlə davam etdirib. Panellərdə Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan, Moldova, ABŞ, Avstraliya, Misir, Səudiyyə Ərəbistanı və Qafqazda İslam sivilizasiyası mövzusu üzrə fəaliyyət göstərən alim, tədqiqatçı və ekspertlər çıxış ediblər.

İki gün davam edəcək Simpozium "İslam mədəniyyətinin Qafqazda dini və ictimai-mədəni həyata təsiri", "Qafqazda İslam elmlərinin inkişafı", "Qafqazda İslam memarlığı, incəsənəti və ədəbiyyatı", "Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu", "Qafqazda İslamın yayılması", "Qafqazda multikulturalizm", "İslam sivilizasiyası Qafqazda" araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər, tarixi mənbələr, sənədlər və artefaktlar, mövzu üzrə akademik əməkdaşlıq", "Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu", "Çar Rusiyasının Qafqazda İslam siyasəti", "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu" adlı panelləri əhatə edir.

Konfransın materialları kitab şəklində çap olunacaq.

**AZƏRTAC**

# HALAL ZƏHMƏTİN İŞIĞINDA



**Blaband kəndi uca dağlara söykənib. Üzünü günəşə, işığa tutub. Min bir rəngə çalan mənzərələri, yaşıllıqları göz oxşayır.**

Halal, zəhmətkeş, mərd insanları, alimləri, adlı-sanlı ziyalıları kəndin və doğma Lerikin adını uzaq diyarlarda tanıdır. Görkəmli dilçi alim, filologiya elmləri doktoru, professor Əvəz Sadıqov uzun illər Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda şöbə müdiri işləyib. Kəndin daha bir yetirməsi Əminağa Sadıqov hazırda Milli Elmlər Akademiyasının elmi katibi kimi məsul vəzifədə çalışır. Milli Elmlər Akademiyasının müxbir üzvüdür. Respublikamızda və onun hüdudlarından kənarda riyaziyyatçı alim kimi böyük nüfuza, hörmətə malikdir. Zahirəli Sadıqov da riyaziyyatçıdır, Azərbaycan Dövlət Pedaqoji Universitetində kafedra müdiri işləyir.

Sadıqovlar nəslinin layiqli nümayəndələrindən biri də Fətta Sadıqovdur. Atası Qafar gənclik illərində Bakıda neft mədənlərində işləyib. Sonra doğma yurda qayıdıb. Ömür-gün yoldaşı Münəvvər xanımla 7 övlad böyüdüb ərsəyə çatdırıblar. Ailənin sonbeşiyi olan Fətta orta məktəbdə bilikli, nümunəvi şagird kimi yaşıdlarından fərqlənirdi. Qardaşları riyaziyyata, humanitar elmlərə meyil salsalar da, o, həkim olacağını düşünürdü. Anası oynaq ağrılarından çox əziyyət çəkdiyindən Fətta bu qənaətə gəlmişdi.

Orta məktəbdə oxuduğu illərdə Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olunmaq o qədər də asan deyildi. Qəbul imtahanlarında böyük müsabiqə olurdu. Məktəbin məzunlarından bir neçəsi illərlə müsabiqədən keçə bilmirdi. Orta məktəb müəllimləri ona deyirdilər ki, başqa ixtisas seçsin. Fətta isə biliyinə, qüvvəsinə inanır, deyirdi ki, həyatda fəth olunmayan zirvə yoxdur.

1989-cu ildə imtahanlardan yüksək nəticə qazanaraq Azərbaycan Dövlət Tibb Universitetinin birinci müalicə-profilaktika fakültəsinə qəbul olundu. Gecə-gündüz oxuyur, ixtisasını böyük həvəslə, dərindən öyrənirdi. Universitetdə əlaçı tələbə kimi tanınır, müəllimlərin etimadını qazanırdı. Əmisi, professor Əvəz Sadıqov ona deyirdi: "Düz edirsən, arzularının arxasınca get, səndən yaxşı həkim olacaq."

Fətta 1995-ci ildə universiteti bitirdi. O vaxt cərrahiyyə ixtisasına ancaq "əla" qiymətlərlə oxuyanları seçirdilər. Fətta zəhmətinin bəhrəsini gördü, cərrahiyyə üzrə təyinat aldı. Bakı şəhər onkoloji dispanserdə iki il cərrah işlədi. Dünya şöhrətli onkoloq, akademik Əhliman Əmiraslanovun rəhbərliyi altında cərrahiyyə üzrə ixtisaslaşdı. Burada cərrahiyyənin sirrlərini öyrəndi, zəngin təcrübə qazandı.

1999-cu ildə M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində endokrin cərrahlığı üzrə aspiranturaya qəbul olundu. O dövrün qaydalarına görə üç il ərzində namizədlik dissertasiyasını hazırlamalı və müdafiəyə çıxarmalı idin. Əks halda mərkəzdə elmi işçi kimi qalmaq mümkün deyildir.

Fətta burada Azərbaycan cərrahiyyəsinin korifeylərindən olan akademik Böyükkişi Ağayevin yüksək qayğısını gördü. Bu böyük alimin, nüfuzlu şəxsiyyətin, xeyirxah insanın rəhbərliyi ilə "Böyrəküstü vəzi mənşəli arterial hipertoniyaların kompleks diaqnostikasının və cərrahi müalicəsinin uzaq nəticələrinin yaxşılaşdırılması" mövzusunda namizədlik dissertasiyasını vaxtında, uğurla müdafiə etdi.

Onun elmi işi tibbdə çox aktual məsələlərdən hesab olunur. Fətta Sadıqov mərkəzin endokrin cərrahlığı şöbəsində işləməklə mövzunu praktik olaraq dərindən öyrənir, tədqiq edirdi. O, böyrəküstü vəzi mənşəli hipertoniyalar zamanı böyrəklərdə gedən morfoloji dəyişiklikləri və bu xəstəliyin cərrahi müalicəsinin uzaq nəticələrini öyrənib tətbiq etmişdir. Aldığı sanballı elmi nəticələr namizədlik işinin səviyyəsinin və əhəmiyyətinin yüksək olduğunu əyani təsdiq edir.

İstedadlı, bacarıqlı alim 2010-cu ildə mərkəzin endokrin cərrahlığı şöbəsinin müdiri vəzifəsinə irəli çəkilir. O, elmi işlə yanaşı həm də həkimlik fəaliyyəti ilə məşğul olur. Hər gün çoxlu xəstə qəbul edir, cərrahi əməliyyatlar aparır, xəstələrin müalicəsinin səmərəli olması üçün əlindən gələni əsirgəmir. Onlara peşəkar həkim, səmimi insan kimi yanaşır, heç bir xəstəni diqqətdən kənarda qoymur. Əhalinin aztəminatlı təbəqəsindən olan xəstələrə xüsusi qayğı göstərir, xeyirxahlığı ilə ürəklərdə, yaddaşlarda iz qoyur. Dəfələrlə "Şərəfli həkim" media mükafatına, "İlin həkimi" fəxri adına layiq görülüb. O, "Sağaltdığım minlərlə xəstənin səmimi ürək sözləri, minnətdarlığı mənim ən böyük mükafatımdır", - deyir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası tibb işçilərinin də qarşısında mühüm vəzifələr qoyur. Regionlarda tibbi xidmətin yaxşılaşdırılması və aparılan cərrahiyyə əməliyyatlarının keyfiyyətinin yüksəldilməsinə çalışdığı Elmi Cərrahiyyə Mərkəzinin kollektivi də öz töhfələrini verir. Fətta Sadıqov həmkarları ilə tez-tez respublikamızın rayonlarında olur, xəstələri yerindəcə müayinə edərək uğurlu cərrahi əməliyyatlar aparır. Sabirabad, İmişli, Zərdab, Göyçay, Beyləqan, Masallı və digər regionlarda tibbi konfranslar keçirir, səhiyyənin yeni nailiyyətləri, endokrin cərrahlığın müasir aspektləri mövzusunda çıxışları böyük maraqla qarşılanır.

Bacarıqlı tibb təşkilatçısı, nüfuzlu alim Fətta Sadıqov gənc cərrahların hazırlanmasında işgüzar, təcrübəli müəllim və ustad kimi köməyini əsirgəmir, rezidentlərə ustad dərsləri keçir, onların cərrahi əməliyyatlarda iştirakını təmin edir.

"Azərbaycan tibb jurnalı", "Sağlamlıq" və "Cərrahiyyə" jurnallarında endokrin xəstəliklərinin diaqnostika və müalicəsinin müasir aspektləri mövzusunda tezis və məqalələrlə çıxış edir. Fətta Sadıqov Avropa Tireodoloqlar Assosiasiyasının, Rusiya Endokrin Cərrahlar Cəmiyyətinin, Azərbaycan-Türkiyə-Almaniya Cərrahlar Cəmiyyətinin konfranslarında, həmçinin, İtaliya və Türkiyədə, Tbilisi, Smolensk, Yaroslavl, İrkutsk, Samara, Sankt-Peterburq şəhərlərində keçirilən konfranslarda ölkəmizin tibb elmini ləyaqətlə təmsil etmişdir.

O, bu gün də yorulmadan öz üzərində çalışır, elmi tədqiqatlarını uğurla davam etdirir. "Autoimmun tireodit xəstəliyinin diaqnostikasının və müalicə taktikasının müasir aspektləri" mövzusunda doktorluq işini yekunlaşdırmaq üzrədir. Həkimlik fəaliyyətində endokrin cərrahlığın son nailiyyətlərinin tətbiqinə daha çox üstünlük verir.

M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin direktoru, tibb elmləri doktoru, professor Rauf Ağayev Fətta Sadıqovun həkim kimi gözəl bacarığa, alim kimi yüksək səviyyəyə, mədəniyyətə malik olduğunu vurğulayaraq deyir: "Fəttada həkim peşəkarlığı ilə alim müdrikliyi qovuşub. Sənətinin vurğunudur. İşini gözəl bilir. Onun elm sahəsində daha parlaq nailiyyətlər əldə edəcəyinə inanıram."

Mərkəzin elmi işlər üzrə direktor müavini, tibb elmləri doktoru, professor Hidayət İsayev, mərkəzin baş həkimi, tibb elmləri doktoru Yusif Əliyev, tibb elmləri doktoru, professor Əliniyaz Məmmədov, tibb elmləri doktoru Zərraf Şirinov Fətta Sadıqovun istər elm, istərsə də səhiyyə sahəsində kifayət qədər tanındığını, tibbi ictimaiyyət arasında böyük nüfuza malik olduğunu, haqqında həmişə xoş sözlər deyildiyini bildirirlər.

Tələbə dostu, Mərkəzi Neftçilər Xəstəxanasının şöbə müdiri Yaşar Həsənov Fətta Sadıqovun sadə, əməkçi bir ailədə böyüdüyünü, ömrü boyu zəhmətə qatlaşdığını, tələbəlik dövründə elmə sonsuz maraq göstərdiyini, qazandığı uğurların arxasında halal zəhmət və istedadın durduğunu deyir. Tələbə yoldaşının yeni uğurlara imza atacağını əminliklə söyləyir.

Fətta həkimin övladları Vəfa və Səma ata yolunun davamçıları olacaqlar. Vəfa Macarıstanda, Səma Türkiyədə ali tibb təhsili alır. Sadıq isə Bakı şəhərindəki fizika-riyaziyyat və informatika təmayüllü liseydə oxuyur.

Gözəl alim, peşəkar həkim Fətta Sadıqov vətənpərvər, gərəkli, xeyirxah insan olmağı həyatının mənası hesab edir. Azərbaycan səhiyyəsinin uğurları ilə qürur duyur, ölkəmizin səhiyyə sisteminin aparıcı dövlətlərin səviyyəsinə çatacağına bütün varlığı ilə inanır. Bu sahədə səylərini əsirgəmir, səhiyyəmizin inkişafına dəyərli töhfələr verir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*

# İKT-nin inkişafı insanlara yüksək səviyyəli mədəni xidmət göstərilməsini asanlaşdırıb

Bu gün Azərbaycanda iqtisadi qüdrəti müəyyən edən meyarların, qazanılan makro və mikro iqtisadi göstəricilərin önündə məhz informasiya və kommunikasiya texnologiyalarının (İKT) tutduğu yer və onun inkişafı dayanır. Bu səbəbdən də İKT sahəsi prioritet sahə və ölkə iqtisadiyyatında neftdən sonra ikinci əsas sahə elan edilib, bu sahədə bir çox iri layihələrin icrası həyata keçirilir. Ona görə də uzun illərdir İKT sahəsinin ölkə iqtisadiyyatında xüsusi çəkisi yüksələn xətlə inkişaf edir. Bütün sahələrdə İKT-nin geniş tətbiq edilməsinə və informasiya xidmətlərinin müasir tələblərə uyğun qurulmasına diqqət artırılır. İnkişaf etmiş dünya ölkələrinin təcrübələrindən yararlanaraq informasiya cəmiyyətinin tələbatlarının yerinə yetirilməsi, elektron dövlət və hökumət, elektron idarəetmə, elektron ticarət, təhsil və digər sahələrin ən müasir tələblərə uyğunlaşdırılması üçün qərarlar qəbul edilir, yeni sistem və fəaliyyət istiqamətləri müəyyənləşdirilir.

Vurğulamaq yerinə düşər ki, son illərdə dövlət qurumlarının fəaliyyətində İKT-nin tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb və müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. Belə ki, 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atılıb və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN Xidmət" mərkəzləri yaradılıb. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN Xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində dövlət orqanları əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir. 2012-ci il dekabrın 29-da pilot layihə olaraq Bakıda 1 saylı "ASAN Xidmət" mərkəzi fəaliyyətə başlayıb. 2013-cü ilin mayında Sumqayıtda "ASAN Xidmət" mərkəzi istifadəyə verilib. Daha sonra 2 və 3 saylı Bakı "ASAN Xidmət" mərkəzləri açılıb.

Qeyd edək ki, "ASAN Xidmət" mərkəzlərində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər - bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, internet-kafe, poçt şöbələri, fotostudiya və sair fəaliyyət göstərir. Mərkəzlərdə yerləşdirilən xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Vətəndaşın qəbulu elektron növbə əsasında həyata keçirilir. Bunun üçün ən müasir avadanlıq quraşdırılıb.

### "ASAN Xidmət" və "ASAN kommunal" sahibkarlığın inkişafını sürətləndirib

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev bildirir ki, adıçəkilən qurum vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə xidmətlərin müştəri məmnunluğu və şəffaflıq prinsipləri əsasında vahid məkanda həyata keçirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirir. Onun dediyinə görə, kommunal sahədə əhaliyə göstərilən xidmətlərin müştəri məmnunluğu və şəffaflıq prinsipləri əsasında vahid məkanda həyata keçirilməsi məqsədilə "Azərişıq" ASC tərəfindən "ASAN Xidmət" və "ASAN Kommunal" mərkəzlərində 2014-cü ilin may ayından etibarən bir sıra xidmətlər üzrə əməkdaşlığa başlayıb: "Həmin xidmətlərə əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması, borcun araşdırılması və borcun olmaması (və ya olması) barədə sənədin verilməsi, əhali istehlakçısının ad dəyişdirilməsi, qeyri-əhali qrupuna aid abonentlərə üzləşmə aktlarının verilməsi, qeyri-əhali istehlakçısının ad dəyişdirilməsi, smart kartların bərpası və yenisinin verilməsi, abonentin geniş tarixçəsinin verilməsi, qeyri-əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması, sayğacın zədələnməsinin araşdırılması üçün müraciətlərin qəbulu və smart karta ödənişin yüklənməsi kimi xidmətlər daxil idi. Sonrakı mərhələdə ASC-nin "ASAN Xidmət" və "ASAN kommunal" vasitəsi ilə abonentlərə göstərdiyi xidmətlərin sırasına daha 2 xidmət əlavə olunub. Belə ki, ölkədəki bütün "ASAN Xidmət" və "ASAN kommunal" mərkəzlərində "yük hesabatının hazırlanması" (elektrik enerjisinin gücü və keyfiyyət göstəriciləri barədə sənəd) və "istehlakçının balansında olan elektrik şəbəkələrinə, onların avadanlıqlarına texniki xidmətin göstərilməsi" adlı 2 yeni xidmət fəaliyyətə başlayıb. Qeyd edək ki, "yük hesabatının hazırlanması" (elektrik enerjisinin gücü və keyfiyyət barədə sənəd) üçün ərizə-blank və müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi tələb olunur. Bu xidmət sifarişçinin tələbinə uyğun olaraq dərhal və ya 2 gün ərzində həyata keçirilir. "İstehlakçının balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi" üçün də ərizə-blank və müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi tələb olunur. Xidmətin müddəti isə işin həcmindən asılı olaraq müqavilə əsasında müəyyən edilir.

Bundan başqa, məlum olduğu kimi Nazirlər Kabineti "Tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə qoşulma haqqı məbləği"nin təsdiq edilməsi barədə yeni qərar verib. Bununla da sahibkarların tələb olunan gücü 150 kVt-a qədər mövcud 0,4 kV-luq şəbəkədən tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə vahid tarif təsdiq edilib. Bu isə o deməkdir ki, "Azərişıq" ASC-nin "ASAN Xidmət" və "ASAN kommunal" vasitəsi ilə bu günə qədər xidmət göstərdiyi "qeyri-əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması" xidmətində yeniliklər edilərək vahid tarif tətbiq olunub. Bu isə sözsüz ki, sahibkarların işini daha da asanlaşdırıb".

Tanrıverdi Mustafayev xatırladır ki, bu ilin may ayında "Azərişıq" ASC-yə "ASAN Xidmət", "ASAN Kommunal" və elektron qaydada obyektini elektrik şəbəkəsinə qoşdurmaq üçün 424 sahibkar müraciət edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə çoxdur. Sahibkarların müraciətlərinin sayında ciddi artım müşahidə olunması heç şübhəsiz ki, aparılan islahatlarla bağlıdır: "Belə ki, ötən il dekabr ayının 25-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Fərman imzalaması və şəbəkəyə qoşulma müddəti 24 gündən 20 günə, prosedurlar isə 3-dən 2-yə endirilməsi kifayət qədər ciddi islahat sayılır. Bundan başqa, şəbəkəyə qoşulma ilə bağlı kilovata görə vahid tarifin tətbiq olunması, "Azərişıq" ASC-nin elektron xəritəsinin "ASAN Xidmət"in işinə inteqrasiya edilməsi və nəhayət müraciətlərin elektron qaydada qəbul olunması da müsbət mənada öz rolunu oynayıb. Bununla yanaşı, apreldə 4355 vətəndaş evinə, bağına və ya həyətinə işıq çəkdirmək üçün müraciət edib. Sənədlərdə uyğunsuzluq və bu kimi hallar istisna olmaqla həm sahibkarların, həm də vətəndaşların müraciətləri yerinə yetirilib. Ümumilikdə isə may ayı ərzində "Azərişıq" ASC-yə göstərdiyi 15 xidmət üzrə "ASAN Xidmət", "ASAN Kommunal" və elektron qaydada 30 minə qədər müraciət daxil olub".

### "Azəriqaz" İB "Asan Xidmət" vasitəsilə istehlakçılarla münasibətləri təkmilləşdirir

"Azəriqaz" İstehsalat Birliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İbrahim Kərbəlayev deyir ki, sözügedən birlik dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunması "ASAN Xidmət" və "ASAN Kommunal" mərkəzlərində bir sıra xidmətlər üzrə əməkdaşlığa başlayıb. Bunun nəticəsidir ki, adıçəkilən Birlik tərəfindən 2019-cu ilin yanvar-iyun ayları ərzində Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən "ASAN Xidmət" və "ASAN Kommunal" mərkəzlərində istehlakçılardan daxil olan müraciətlər əsasında smart tipli sayğaclar ilə təchiz olunmuş istehlakçılara müvafiq xidmətlərin göstərilməsini, müraciətlərdən asılı olaraq şöbələrdən tələb olunan məlumatların əldə olunmasını və bu məlumatlar əsasında istehlakçılara xidmətlərin göstərilməsini təmin edib: "Cari ilin altı ayı ərzində Bakı şəhəri üzrə 1 və 2 saylı "ASAN Kommunal", 4, 5 saylı "ASAN Xidmət" mərkəzlərinə və "Səyyar ASAN" xidmətinə, bundan əlavə, Bərdə, Sabirabad, İmişli, Masallı, Qəbələ, Quba, Mingəçevir, Şəki, həmçinin Gəncə şəhərində yerləşən "ASAN Xidmət" mərkəzlərinə ümumilikdə 154 min 460 müraciət daxil olmuş və bu müraciətlərin icrası tam təmin edilib. Onu da bildirim ki, istehlakçılarla münasibətlərin təkmilləşdirilməsi, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Birlik bu istiqamətdə fəaliyyətini bundan sonra da davam etdirəcək".

### "Azərsu" ASC-nin xidmətləri ilə bağlı 26 mindən çox müraciət qeydə alınıb

"Azərsu" ASC-dən isə bildirildi ki, adıçəkilən Səhmdar Cəmiyyətin "ASAN Xidmət" mərkəzlərində müştəri xidmətlərinin göstərilməsinə 2014-cü ilin may ayından başlanılıb. 2017-ci ildən "Azərsu" ASC "ASAN Kommunal" mərkəzlərində də təmsil olunur. Ümumilikdə, 2014-cü ildən indiyədək bütün xidmət mərkəzlərinə vətəndaşlar tərəfindən müxtəlif məsələlərlə bağlı 220 minədək müraciət daxil olub. "ASAN Xidmət" və "ASAN Kommunal" mərkəzlərində təmsil olunması istehlakçılara göstərilən müştəri xidmətlərinin asanlaşdırır və bu sahədə şəffaflığın artırılmasını təmin edir. Əvvəlki dövrlərdə olduğu kimi, 2019-cu ilin birinci rübündə də bu mərkəzlərə "Azərsu" ASC-nin təqdim etdiyi xidmətlərlə bağlı edilən müraciətlərin sayı artıb. Belə ki, 2019-cu ilin yanvar-mart aylarında "ASAN Xidmət" və "ASAN Kommunal" mərkəzlərində fəaliyyət göstərən "Azərsu" ASC-nin xidmət bölmələrinə vətəndaşlar tərəfindən müxtəlif məsələlərlə bağlı 26 min 850 müraciət edilib. Daxil olmuş müraciətlərin 13 min 182-si "ASAN Xidmət", 13 min 668-i isə "ASAN Kommunal" mərkəzlərində qeydə alınıb. Vətəndaşlar xidmət bölmələrinə daha çox ödənişlər haqqında məlumatların verilməsi, texniki şərtin verilməsi, itirilmiş və zədələnmiş smart kartların bərpası, abonent məlumatlarına dəyişikliklərin edilməsi ilə bağlı müraciətlər edib.

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*

# Azərbaycan dünya birliyinə inteqrasiya kursunu uğurla davam etdirir

Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi və iqtisadi kursu müstəqil respublikamızı regionun lider dövlətinə çevirməklə yanaşı, ölkəmizi dünyada etibarlı tərəfdaş kimi tanıdıb. Dövlətimizin başçısı rəsmi və işgüzar səfərlərdə ev sahibliyi etdiyimiz və həmçinin xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurları, eyni zamanda Dağlıq Qarabağ problemini daim dünya ictimaiyyətinin diqqətinə çatdırır. Bu isə həm bölgədə, həm də dünyada respublikamızın etibarlı tərəfdaş kimi nüfuz qazanmasına imkan verir.

On beş il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004-cü il) 46 milyard dollara (2018-ci il) çatdırılmışdır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur. Müstəqillik dövründə Azərbaycana yatırılan sərmayələrin 93 faizini təşkil edən həmin investisiyaların təxminən yarısı daxili mənbələrin payına düşür.

Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat lahiyələri həyata keçirilmişdir. 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri (uzunluğu 1767 kilometr), 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (uzunluğu 950 kilometr) istifadəyə verilmişdir. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu qlobal layihənin icrası sürətlə getmiş və 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilmişdir. TAP layihəsinin icrası isə qrafik üzrə davam etdirilir.

Ölkə rəhbərinin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin yaradılması istiqamətində böyük işlər görülmüşdür. Təməli 2007-ci ildə qoyulmuş Bakı-Tbilisi-Qars dəmiryolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olmuşdur. Azərbaycanın Rusiya Federasiyası, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilmişdir. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılmışdır. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilmişdir.

Son 10 ildə Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur. 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılmış, 2013-cü il ölkədə "İnformasiya Texnologiyaları ili" elan edilmişdir. Həmin il fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1", 2014-cü ildə ikinci-Yer səthini müşahidə edən "Azersky" peyki, 2018-ci ilin sentyabrında isə daha bir telekommunikasiya peyki-"Azerspace-2" orbitə çıxarılmışdır.

Son illərdə xüsusi əhəmiyyət kəsb edən işlərdən biri də Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı-Ələt Dəniz Ticarət Limanı fəaliyyətə başlamışdır. İndiyədək 7 hava limanı tamamilə yenidən qurularaq istifadəyə verilmişdir. Onlardan altısı (Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ, Zaqatala) beynəlxalq hava limanı statusu almışdır. Bakıda Heydər Əliyev Beynəlxalq Aeropotu dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasına daxil olmuşdur.

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüş və bu iş davam etdirilir. 2015-ci ildə yaradılmış Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir, bunlardan bir çoxu xarici ölkələrdə keçirilən beynəlxalq sərgilərdə böyük maraqla qarşılandığından ixracına başlanmışdır. Beynəlxalq reytinqlərə görə, Azərbaycan Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur.

Azərbaycan Prezidentinin 2014-cü il tarixli sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmış, 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Azərbaycan "Sivilizasiyalararası dialoq, tolerantlıq və humanitar əməkdaşlıq" mövzusunda çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi etmiş, bir sıra qlobal təşəbbüslər irəli sürmüşdür. Məsələn, 2008-ci ildə Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin toplantısına İslam ölkələri mədəniyyət nazirləri də dəvət edilmişdilər. Həmin forumda Azərbaycan Prezidenti sivilizasiyalar, xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı naminə "Bakı Prosesi" təşəbbüsü ilə çıxış etmişdir. Bundan sonrakı illərdə bu çərçivədə çoxsaylı beynəlxalq tədbir və layihələr həyata keçirilmişdir.

Ümummilli liderimiz çıxışlarının birində vurğulamışdır ki, yol mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir. Bu baxımdan qeyd edə bilərik ki, 2004-cü ildən bəri ölkəmizdə 15 min kilometr avtomobil yolu salınıb. Təkcə 2018-ci ildə 2 min kilometr avtomobil yolu çəkilib. Bu, rekord göstəricidir. Davos Ümumdünya İqtisadi Formunun hesablamalarında yol infrastrukturunun keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir. Kənd yollarının da infrastrukturu yaxşılaşıb, yeni yollar salınıb. Yol çəkilişi həm də iqtisadi amildir. Çünki yol olan yerdə kənd təsərrüfatının inkişafı da sürətlənir, yol olan yerdə turizmə maraq artır və nəhayət sosial məsələlər də öz həllini tapır.

Azərbaycanda turizm inkişafı üçün potensial imkanlar genişdir. Birincisi, dünyada mövcud olan 11 iqlim qovşağından 9-u ölkəmizdə mövcuddur. 2018-ci ildə respublikamıza 2 milyon 850 min nəfər xarici qonaq gəlib.

Bu göstərici əvvəlki illə müqayisədə 6 faiz çoxdur. Turizm sənayesinin yaradılması istiqamətində işlər gedir. Ölkəmizdə mövcud olan bütün amillər turizmin sürətli inkişafını şərtləndirir. Təhlükəsizlik, qonaqpərvərlik, tarixi abidələrimiz, gözəl iqlimimiz, dəniz turizmi (Xəzəryanı sahillər), dağ-xizək turizmi ("Tufandağ", "Şahdağ"), müalicəvi turizm ("Naftalan") sürətlə inkişaf etmək üzrədir. Bu sahədə islahatlar aparılır. Azərbaycan Dövlət Turizm Agentliyi yaradılıb və fəaliyyət göstərir.

Azərbaycan mötəbər idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. 2015-ci ildə Azərbaycan tarixində ilk dəfə birinci Avropa Oyunları baş tutmuşdur. 50 ölkəni təmsil edən 6 min idmançının iştirak etdiyi Oyunlarda komandamız ümumi hesabda 2-ci yeri tutmuş (Rusiyadan sonra) 21-i qızıl olmaqla 56 medal qazanmışdır. 2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında isə respublikamız komanda hesabında birinci yerə çıxmışdır. Vurğulamaq lazımdır ki, bu idman tədbirlərinə yüksək səviyyədə hazırlıq görülüb uğurla başa çatdırılmasında Oyunların təşkili üzrə Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva xüsusi bacarıq və səy göstərmişdir. 2016-cı ildən etibarən Bakıda hər il ümumi auditoriyası 500 milyon nəfərdən çox olan "Formula-1" yarışları təşkil edir. 2019-cu ilin aprel ayında da Formula-1-in Azərbaycan Qran-prisi yüksək səviyyədə başa çatmışdır. Bütün bunlar idman tədbirləri olmaqla yanaşı, həm də Azərbaycan həqiqətləri, reallıqlar ortaya qoyulur.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının, çoxsaxəli islahatlar proqramını müasir çağırışlara uyğun yaradıcılıqla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, postsovet məkanında keçid dövrünü başa vuran ilk ölkə olmuşdur. Beynəlxalq reytinq agentlikləri və maliyyə qurumları da bu inkişaf tempini yüksək qiymətləndirirlər. Belə ki, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda həyata keçirilən islahatlara yüksək qiymət vermişdir. Hər ilin yanvar ayında İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşmışdır. Forumun "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3- cü yerə yüksəlmişdir.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti cənab İlham Əliyev 2016-cı ildə Forumda 10-cu dəfə iştirak etdiyinə görə Davos fəxri üzvlər klubunun nişanı ilə təltif edilmişdir.

Nəhayət, bu ilin 14-16 mart tarixlərində Bakıda keçirilmiş daha bir mötəbər tədbirə nəzər salaq. Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumu ölkəmizin dünya birliyinə inteqrasiya istiqamətində böyük əhəmiyyət kəsb edir. Belə ki, bu Forumun işində 55 ölkədən 500-dən çox nümayəndə iştirak edib. "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən Foruma fəaliyyətdə olan 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini, 42 sabiq dövlət başçısı və baş nazirlər, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər qatılmışdılar. Tədbirdə 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə edilmişdir. Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumu çərçivəsində beynəlxaq əhəmiyyət daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Bu mövzular arasında "Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu", "Davamlı inkişaf çağırışları", "Təhlükəsizlik naminə Orta Şərq əməkdaşlığı", "Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu" və sairlər vardır.

Qlobal Bakı Forumunun qlobal gündəlikdə duran aktual məsələlərlə məşğul olan ən mühüm beynəlxalq platformalardan biri kimi dəyərləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyev buradakı nitqində demişdir: "Bu gün bu zalda böyük intellektual potensial var, bu da, əslində Forumun əhəmiyyətini əks etdirir. Qlobal gündəlikdə çox sayda beynəlxalq tədbir, konfrans var. Lakin keyfiyyət iştirakçıların siyahısına, onların təcrübəsinə və intellektual potensialına görə ölçülür. Bu səbəbdən, mən düşünürəm ki, Qlobal Bakı Forumunun dünya xəritəsində nadir yeri var".

